

# GÜNDOĞAR

8 aprel 2015-ci il № 11-12 (6562) İCTİMAİ-SİYASİ QƏZET Qəzet 1931-ci ildən çıxır. e-mail: gundogarqazeti@box.az

Təsisçilər: Neftçala Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi

# PREZİDENT İLHAM ƏLİYEV: HEÇ BİR ÖLKƏ ÖZ MİLLİ TƏHLÜKƏSİZLİYİNİ ENERJİ TƏHLÜKƏSİZLİYİNİ TƏMİN ETMƏDƏN SIĞORTALAYA BİLMƏZ

## Bu gün Azərbaycan nəinki öz enerji təhlükəsizliyini təmin edib, eyni zamanda Avropanın enerji təhlükəsizliyində mühüm tərəfdaşa çevrilib

1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasından sonra hasil edilən neftin hansı yolla dünyaya çıxarılması məsələsi uzun müddət müzakirə mövzusu olaraq qalırdı. Bu məsələdə maneçilik törətmək istəyənlər də çox idi və onlar hər vəchlə bu prosesin qarşısını almağa çalışırdılar. Lakin bütün məqamlarda Ulu Öndər Heydər Əliyevin və onun layiqli siyasi davamçısı Prezident İlham Əliyevin qətiyyəti, prinsipiallığı Azərbaycanın yeni neft strategiyasının zəfərini təmin etdi. Bu gün neftdən gələn pullar müstəqil Azərbaycan dövlətinin inkişafına, qüdrətlənməsinə, vətəndaşlarının sosial rifahının yüksəlməsinə xidmət edir.

Son illərdə Azərbaycan özünün enerji siyasətini həm də qaz amili üzərində qurur. Xatırladaq ki, hələ 1999-cu ildə "Şahdəniz" qaz yatağının kəşfi və buradan hasilatın başlanması isə ölkəmizin enerji təhlükəsizliyinin təmin olunmasında və dünya enerji bazarında böyük hadisəyə çevrildi. Bunun nəticəsi olaraq respublikamızda təbii qaz hasilatı əhəmiyyətli dərəcədə artdı.

5 il əvvəl Azərbaycan neftçiləri və mütəxəssisləri tərəfindən aşkarlanan "Ümid" yatağı ölkəmizin enerji potensialının dünya bazarlarına təqdim edilməsi üçün böyük hadisə oldu. "Ümid" yatağının kəşf olunması Azərbaycanın dünyada təkcə neft yox, eyni zamanda, təbii qazla zəngin olan dövlət imicini də yaratdı. Digər tərəfdən bu yataq ölkəmizi istəməyənlər tərəfindən Azərbaycanın qaz ehtiyatları barədə təhrif olunan informasiyalara son qoydu.

2011-ci ildə - Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü ərəfəsində Xəzərdən gələn xoş xəbər xalqımızı dərindən sevindirdi, qürurlandırdı. Dənizin Azərbaycan sektorundakı "Abşeron" blokunda aparılan qazma və kəşfiyyat işləri nəticəsində burada böyük qaz yatağının olduğu aşkar edildi. Yataqda kəşf edilən qaz ehtiyatları Azərbaycanın enerji potensialına böyük dəstək verir. Gələcəkdə buradan hasilatın başlaması nəticəsində respublikamızın qaz ixracı daha da artacaq.



Bu baxımdan zəngin qaz ehtiyatlarına malik Azərbaycan həmişə alternativ nəql imkanlarının axtarışında olan Avropanın və digər dövlətlərin diqqətini cəlb edib. Azərbaycan rəhbərliyi qaz nəqli marşrutlarının şaxələndirilməsi ilə bağlı səslənən təklifləri dəstəkləyib, xüsusən bu sahədə müxtəlif layihələr üzərində baş sındıran Avropa İttifaqının enerji təhlükəsizliyinə töhfələr verməyə hazır olduğunu hər zaman bəyan edib.

Hələ 2013-cü ilin sonlarında Bakıda "Şahdəniz" yatağının işlənilməsinin ikinci mərhələsinə dair yekun investisiya qərarının imzalanması Azərbaycan qazının Avropa bazarlarına çıxarılması istiqamətində ilk mühüm addım idi. Bununla da Azərbaycanın enerji siyasətində yeni dövrün başlanğıcı qoyuldu. 2014-cü il sentyabrın 20-də isə Azərbaycanın yeni tarixinə və enerji siyasətinə qızıl hərflərlə yazılan başqa bir möhtəşəm hadisə baş verdi: "Əsrin müqaviləsi"nin 20 illik yubileyində müxtəlif dövlət və hökumət başçılarının, rəsmi şəxslərin və nüfuzlu şirkət rəhbərlərinin iştirakı ilə digər nəhəng transmilli layihənin - "Cənub" qaz dəhlizinin təməlqoyma mərasimi keçirildi. Xatırladaq ki, "Şahdəniz" yatağı 1999-cu ildə kəşf olunub və buradan birinci mərhələ çərçivəsində 2006-cı ildən Gürcüstan və Türkiyəyə qaz ixrac edilir. "Şahdəniz" yatağının işlənilməsinin ikinci mərhələsində isə təbii qaz "Cənub" qaz dəhlizi vasitəsilə Avropa bazarlarına çıxarılacaq. Təbii ki, layihənin tam başa çatdırılması üçün bir sıra işlər də həyata keçiriləcək, mövcud infrastruktur genişləndiriləcək və yeni boru kəmərləri inşa ediləcək. Artıq bu işlər başlayıb və martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Trans-Anadolu qaz boru kəməri - TANAP-ın təməlinin qoyulması "Cənub" qaz dəhlizinin reallaşması istiqamətində atılan mühüm addım idi.

Azərbaycanın və Türkiyənin birgə səylərinin məhsulu olan bu layihə üzrə saziş 2012-ci ildə İstanbulda imzalanıb. Layihə Azərbaycandan başlayan genişlənmiş Cənubi Qafqaz boru kəmərini Avropa İttifaqında bir neçə kəmərlə əlaqələndirəcək. Beş il ərzində reallaşması nəzərdə tutulan layihə bir neçə mərhələdə həyata keçiriləcək və ilk mərhələ 2018-ci ildə başa çatacaq. 2020-ci ildə bu kəmərlə nəql olunacaq qazın həcmi ildə 16 milyard, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılacaq. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq. Avropa üçün nəzərdə tutulan qaz Türkiyə-Bolqarıstan və ya Türkiyə-Yunanıstan sərhədində təhvil veriləcək.

"Cənub" qaz dəhlizinin digər hissələri isə Trans-Adriatik boru kəməri (TAP) və Cənubi Qafqaz qaz kəməridir. Hazırda Cənubi Qafqaz boru kəməri genişləndirilir. TAP isə qazı Yunanıstan və Albaniya ərazisindən keçməklə İtaliyaya nəql edəcək. TAP Türkiyə-Yunanıstan sərhədində TANAP-la birləşəcək, sonra isə Yunanıstan və Albaniya ərazilərindən, Adriatik dənizinin altından keçməklə İtaliyanın cənub sahillərinədək uzanacaq. Cənub-Şərqi Avropanı təbii qazla təmin edəcək TAP gələcəkdə Xəzər hövzəsində hasil olunan təbii qazın qitənin digər böyük qaz istehlakçılarına - Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriyaya ötürülməsi üçün də geniş imkanlar açacaq.

**Rəşad CƏFƏRLİ**

# Soyqırım qurbanlarının xatirəsi anıldı

Qanlı hadisələrlə, olaylarla dolu 1828-1832, 1877-1878, 1905-1907, 1918-1920, 1948-1953, 1988-ci illəri unutmaq, yaddan çıxarmaq mümkün deyil. Hamısı da "Böyük Ermənistan" xülyası ilə yaşayan nankor qonşularımızın fitnə-fəsadları üzündən baş verib bu qanlı faciələr. Belə yaramaz işlərin, əməllərin ustası olan ermənilər fürsət düşən kimi xalqımıza, millətimizə qarşı qənim kəsilmişlər.

1918-1920-ci illərin dəhşətləri, faciələri xüsusilə unudulmazdır. 1918-ci ilin mart-aprel aylarında bolşevik cildinə girən erməni faşistləri öz havadarlarına arxalanaraq Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda, Neftçalada və digər ərazilərdə qanlı qırğınlar törətdilər. Nəticədə 50 mindən çox azərbaycanlı xüsusi amansızlıqla qətlə yetirildi. Təkcə mart ayının 3 günü ərzində Bakı şəhərində öldürülənlərin sayı 30 mini ötmüşdü. Bunun ardınca Şamaxı qəzasının 58 kəndi viran edilmiş, 7 minədək adam, o cümlədən 1653 qadın, 965 uşaq qılıncdan keçirilmişdi.

Bu qədər genişmiqyaslı qanlı hadisələrin törədilməsinə baxmayaraq, çox təəssüf ki, bu hadisələrə siyasi qiymət verilməmişdir. 1919-cu ildə hökumətin qərarı ilə 31 mart Milli Matəm Günü elan olunsa da, sonralar bu tarixi günü bizə unutdurmuşlar. Yalnız möhtərəm Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan Xalq Cümhuriyyətinin başladığı bu çətin iş başa çatdırılmış, Ulu Öndər 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzalamışdır. Bu ali dövlət sənədindən sonra dünya ictimaiyyəti baş verən bu qanlı faciələr barədə geniş şəkildə məlumatlandırıldı. O vaxtdan başlayaraq martın 31-i Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd edilir. Bununla bağlı Bakı şəhərində, ayrı-ayrı rayon və şəhərlərdə, xarici ölkələrdə anım tədbirləri təşkil olunur. Son illər dövlətin, Heydər Əliyev Fondunun, ölkəmizin xaricdəki diaspor təşkilatlarının bu məsələ ilə əlaqədar öz fəaliyyətlərini daha da genişləndirmələri yalan üzərində qurulmuş erməni təbliğatının puç olmasına öz güclü təsirini göstərir.



Ötən illərdə olduğu kimi bu il də rayonumuzda soyqırımla əlaqədar idarə və müəssisələrdə, məktəblərdə, uşaq tərbiyə müəssisələrində, rayon tarix-diyarşünaslıq muzeyində, rayon mərkəzləşdirilmiş kitabxana sistemində, sistemin yerlərdəki filiallarında və digər yerlərdə silsilə tədbirlər təşkil olunmuşdur. Martın 31-də soyqırım günündə şəhərimizdəki şəhidlər kompleksinin ətrafı xüsusilə izdihamlı idi. Buraya minlərlə insan toplaşmışdı. Rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev, rayonun rəhbər işçiləri, idarə və müəssisələrin rəhbərləri də ictimaiyyətlə birlikdə idilər.

Abidə önünə tər çiçəklər düzüldü, terror nəticəsində həlak olan soydaşlarımızın əziz xatirəsi ehtiramla yad olundu.

Sonra rayon rəhbərliyi və ictimaiyyətin nümayəndələri Heydər Əliyev Mərkəzində soyqırım hadisələrini özündə əks etdirən sərgi ilə tanış oldular, rayon uşaq incəsənət məktəbi şagirdlərinin işlədikləri rəsmlərə baxdılar.



* * *

**Həmin gün Bankə qəsəbəsindəki qəbristanlıqda qəhrəman türk əsgərlərinin şərəfinə ucaldılmış abidənin önünə gələn qəsəbə sakinləri, idarə və müəssisələrin kollektivləri, məktəblilər buraya da tər çiçəklər düzdülər, torpaqlarımızın azadlığı, günahsız insanların xilası üçün canlarından keçməyi bacaran şəhidlərin müqəddəs ruhları qarşısında baş əydilər.**

**Heydər Əliyev Mərkəzində, rayon tarix-diyarşünaslıq muzeyində, mədəniyyət obyektlərində, məktəblərdə, məktəbəqədər uşaq tərbiyə müəssisələrində keçirilən silsilə tədbirlər yaddaqalan oldu.**

# Qazlaşdırma davam edir

## DAHA BİR YAŞAYIŞ MƏNTƏQƏSİNDƏ – II QARALIDA DA "MAVİ ALOV" ŞÖLƏLƏNDİ

### Növbədə isə Aşağı Surra, Qədimkənd, Tatarməhlə, Abasallı, Xol zonasındakı kəndlərdir

Regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar ilk Dövlət Proqramının qəbulundan 10 ildən artıq vaxt keçir. Ötən bu müddət ərzində bölgələrdə infrastrukturun yeniləşməsi, müasir istehsal müəssisələrinin açılması, yeni iş yerlərinin yaradılması istiqamətində və digər sahələrdə çox ciddi tədbirlər həyata keçirilmişdir. Bu tədbirlərin sırasında əhalinin təbii qaza olan tələbatının ödənilməsi də çox mühüm yer tutur. Dövlət başçısı cənab İlham Əliyevin tapşırığına əsasən daha da sürətlənən bu iş artıq öz bəhrəsini verməkdədir. Son bir neçə il ərzində respublikanın ərazisinin 80 faizdən çoxunun qazlaşması buna əyani sübutdur. İndi bunu rayonumuzda da aydın şəkildə görmək olur. Bu mühüm məsələyə diqqətin artırılması başlanmış işi daha da sürətləndirir. Bu isə yeni-yeni yaşayış məntəqələrinin qazlaşmasına şərait yaradır.

Bir neçə ay bundan qabaq Kürqarabucaq kəndində bunun əyani şahidi olmuşduq. Kəndə təbii qazın verilməsi əhali arasında böyük sevincə, fərəhə səbəb olmuşdu. Bununla əlaqədar çıxış edən sakinlər Prezident İlham Əliyevə, bu işləri həyata keçirən təşkilatlara özlərinin səmimi minnətdarlıqlarını bildirmişdilər. Bununla əlaqədar hazırladığımız yazı oxucularımız, rayon sakinləri tərəfindən də razılıq hissi ilə qarşılanmışdı.

Bir neçə gün bundan qabaq bu böyük sevinc, fərəh rayonun digər bir yaşayış məntəqəsində — II Qaralı kəndində yaşandı. Azərbaycan Dövlət Neft Şirkətinin, "Azəriqaz" İstehsalat Birliyinin və birliyin regional idarəsinin rəhbərlərinin, məsul işçilərinin kəndə gəlişi də buraya təbii qazın verilməsi ilə əlaqədar idi. Əllərində dövlət bayraqlarını, Ümummilli Lider Heydər Əliyevin, Prezident İlham Əliyevin portretlərini tutan kənd sakinlərinin fərəhi yerə-göyə sığmırdı. Onlar da, tədbirin gedişini işıqlandıran kütləvi informasiya vasitələrinin nümayəndələri də intizarla təntənəli mərasimin başlayacağı dəqiqələri gözləyirdilər. Belə əlamətdar gündə rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyevin, ARDNŞ-nin prezidenti hörmətli Rövnəq Abdullayevin kənd sakinləri ilə birlikdə olmaları onların sevincini daha da artırmışdı.





Mərasimi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyev açaraq Dövlət Proqramının icrası ilə əlaqədar Neftçalada həyata keçirilən quruculuq-abadlıq tədbirlərindən, o cümlədən rayonun qazlaşdırılması ilə əlaqədar görülən işlərdən danışdı. Göstərdiyi qayğı və diqqətə görə dövlətimizin başçısı cənab İlham Əliyevə, ARDNŞ-nin rəhbərliyinə öz səmimi minnətdarlığını bildirdi.

Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayevin neft istehsalı, bu sahədəki mövcud vəziyyət, sabahkı istiqamətləri ilə bağlı məlumatları maraqla dinlənildi. Dövlət başçısının tapşırığından sonra regionların qazlaşdırılmasına diqqətin daha da artırıldığını vurğulayan Rövnəq müəllim Neftçalada görülən işləri, kənddə qazın açılışını da ümumrespublika tədbirlərinin davamı kimi dəyərləndirdi. Qeyd etdi ki, bu işlər sürətləndirilməklə yaxın vaxtlarda rayonun 80 faizindən çoxunun qazlaşdırılması nəzərdə tutulmuşdur.

Sonra rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyev, ARDNŞ-nin prezidenti Rövnəq Abdullayev odluğa yaxınlaşaraq əllərindəki məşəllə onu alovlandırdılar. Alqış sədaları ətrafı bürüdü. Gələn qonaqlar kənd sakinlərini ürəkdən təbrik etdilər, onlara isti ocaq, xoş günlər arzuladılar.

Uzun illər ərazinin ən böyük təhsil ocaqlarından birinə rəhbərlik etmiş respublikanın Əməkdar müəllimi Əzizağa Cəfərov, kənd ağsaqqalı Abdulla Kazımov və başqaları çıxış edərək sakinlər adından göstərdiyi qayğı və diqqətə görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər. Qeyd etdilər ki, bu qayğıya cavab olaraq bütün neftçalalılar kimi II Qaralı kəndinin sakinləri də daim dövlət başçısının yanında olacaq, bütün sahələrdə onu dəstəkləyəcəklər.

Öyrəndik ki, kəndin qazlaşmasını "Qlobal servis" MMC-nin "Səda-2010" podratçı təşkilatı yerinə yetirmişdir. İşlər uğurla davam edir. Yaxın vaxtlarda təşkilatın səyi sayəsində rayonun Aşağı Surra, Qədimkənd, Tatarməhlə, Abasallı kəndlərində və Xol zonasında da "mavi alov" şölələnəcəkdir.

# BUĞDA VƏ ÇƏLTİK SƏPİNİNƏ GÖRƏ İSTEHSALÇILARA 17 MİLYON MANATDAN ÇOX YARDIM OLUNACAQ

Martın 16-da Kənd Təsərrüfatı Nazirliyində kənd təsərrüfatı məhsullarının istehsalçılarına hər hektar əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına 40 manat yardım verilməsi, habelə "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına satılan mineral gübrələrin dəyərinin orta hesabla 70 faizinin dövlət tərəfindən ödənilməsinin təmin edilməsi üzrə respublika komissiyasının növbəti iclası keçirilib.

Respublika komissiyasının sədri, kənd təsərrüfatı nazirinin müavini İlham Quliyev qeyd edib ki, 2007-ci ildən başlayaraq kənd təsərrüfatı məhsulları istehsalçılarına buğda və çəltik səpininə görə yardım verilir. Bu məqsədlə 2015-ci ildə də dövlət büdcəsində vəsait nəzərdə tutulub.

İclasda kənd təsərrüfatı məhsullarının istehsalçılarına hər hektar buğda və çəltik səpininə görə dövlət büdcəsinin vəsaiti hesabına 40 manat yardım verilməsi ilə bağlı 58 rayon (şəhər) komissiyasından daxil olmuş sənədlərə baxılıb.

Komissiya 58 rayon (şəhər) komissiyası üzrə 129063 istehsalçıya 426277,44 hektar buğda və çəltik səpininə görə 17051097,60 manat məbləğində yardım ayrılması barədə qərar qəbul edib. Eyni zamanda, komissiyanın iclasında güzəştli şərtlərlə verilmiş 10341 ton gübrə üçün 4628000 manat vəsaitin ödənilməsi barədə qərar qəbul olunub.

Kənd təsərrüfatı məhsullarının istehsalçılarına yardımın ödənilməsi məqsədilə müvafiq sənədlər Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, "Kapital Bank" ASC-yə və aidiyyəti rayon (şəhər) icra hakimiyyətlərinə göndərilib.

# ƏKİNÇİNİN YAZ QAYĞILARI

Yenə bahardır. Torpaq oyanır, ağaclar cana gəlir, hər tərəf yamyaşıl örpəyə bürünür. Yazın gəlişi təbiəti canlandırmaqla yanaşı, insanlara da yeni qayğılar gətirir, onu bağa-bağçaya, çölə, tarlaya səsləyir. İndi hara baxsan orada bir canlanma, hərəkət görərsən. Başqa cür ola da bilməz. Axı, əksər kənd təsərrüfatı məhsullarının bünövrəsi məhz yaz aylarında qoyulur. Elə buna görə indi insan torpaqla təmasa daha çox can atır. Fərdi həyətyanı sahələrdən tutmuş iri fermer təsərrüfatlarınadək hər yerdə qızğın iş gedir. Belə vaxtda hər bir adamın öz həyətyanı sahəsində göy-göyərti əkməsi, meyvə-tərəvəz, bostan məhsulları yetişdirməsi də ümumi məhsul bolluğunda, qiymətlərin aşağı düşməsində az rol oynamır. Ona görə gərək torpağa sahib olan hər bir şəxs bu barədə düşünsün. Onun hər qarışından səmərəli istifadə etsin. Belə olsa məhsulumuz doğrudan da bol olar. Bu həm əkib-becərənə, həm də onun məhsulunu alıb istifadə edənə xeyir gətirər.



İri kəndli təsərrüfatlarında işlərin həcmi xüsusilə genişdir. Ötən ilki quraqlıq məhsul istehsalına xeyli ziyan vursa da, bu il havalar yağıntılıdır. Daha bol, daha keyfiyyətli məhsul gözlənilir. Keçən payızda bu ilin taxılı üçün əkilən 45 min hektardan artıq sahədə də vəziyyət ürəkaçandır. Müntəzəm yağan qar və yağış bitkilərin inkişafına öz müsbət təsirini göstərib. Yamyaşıl zəmilər sürətlə boy atmaqdadır. Buna baxmayaraq onların becərilməyə, qayğıya da böyük ehtiyacları var. Dövlətin kənd əməkçilərinə köməyindən, qayğısından bəhrələnən insanlar məhsuldarlığın artırılması üçün zəmilərə gübrə verir, digər aqrotexniki tədbirləri vaxtlı-vaxtında, keyfiyyətlə həyata keçirməyə çalışırlar.

Fermerlər, kənd təsərrüfatı sahəsində çalışanlar zəmiləri becərməklə yanaşı, pambıq əkini və digər yazlıq əkinlərini də unutmurlar. Onlar bu əkinləri də vaxtında yerinə yetirmək əzmindədirlər. Bunun üçün texnika vasitələri təmir olunub, toxumlar seçilərək alınıb, başqa işlər görülüb. İndi kənddə yaşayan hər bir şəxs cari ilin bol məhsulu haqqında düşünür, bunun üçün əlindən gələni əsirgəmir. İşləriniz avand, ruzunuz bol olsun, əziz kənd əməkçiləri!

### Faşist Almaniyası üzərində Qələbənin 70 illik yubileyi qarşısında

# BU ŞANLI ZƏFƏRDƏ AZƏRBAYCANIN ROLU MİSİLSİZ VƏ DANILMAZDIR

Bir çoxlarının düşündüyü kimi 1941-1945-ci illərin Böyük Vətən müharibəsi heç də rusların almanlarla müharibəsi deyildi, bütün dövrlərdə olduğu kimi xeyrin şərlə qanlı savaşı idi. Həmişə olduğu kimi onda da, nəhayət, xeyir şərə, haqq nahaqa qalib gəldi, təcavüzkar özünün qanında boğuldu. Biz də o vaxt haqqı, xeyiri təmsil edir, keçmiş SSRİ-nin tərkibində şərə, təcavüzkara qarşı ölüm-dirim savaşı aparırdıq. Elə buna görə də Ümummilli Lider Heydər Əliyev biz veteranlara həmişə qayğı ilə yanaşır, ehtiyaclarımızla ciddi maraqlanırdı. Ulu Öndərin yolunu layiqincə davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyev də bizi heç vaxt diqqətdən kənarda qoymur, hər cür ehtiyaclarımızı dolğun ödəyir. Dövlət başçımızın "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 70 illik yubileyinin qeyd edilməsinə hazırlıq barədə" MDB Dövlət Başçıları Şurasının 2012-ci il 5 dekabr tarixli qərarına uyğun olaraq "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinə hazırlıq və yubileyin qeyd olunması üzrə Tədbirlər Planı"nın təsdiq edilməsi barədə və "1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" sərəncamları da məhz bu diqqət və qayğının təzahürüdür. İndi hər yerdə bununla əlaqədar geniş və ardıcıl iş aparılır.



**Əlixan ƏLİYEV, rayon venteranlar şurasının sədri**

Böyük Vətən müharibəsinin dəhşətləri, fəlakətləri haqqında çox deyilməsinə, çox yazılmasına baxmayaraq elə bilirəm qələbənin 70 illik yubileyi ərəfəsində o illərə yenidən qayıtmaq, yenidən nəzər salmaq çox vacibdir. Müharibə ərəfəsində Almaniya çox güclü hərbi-iqtisadi potensiala malik idi. 1934-cü ildən 1940-cı ilə qədər burada hərbi istehsal 22 dəfə, hərbi qüvvələrin sayı 35 dəfə artmış, 105 mindən 3755 minə çatmışdı. 1941-ci ilin ortasında Almaniyanın silahlı qüvvələrinin ümumi sayı 7,3 milyon adamdan, 1,2 milyon muzdludan ibarət idi. Texnika da güclü idi: 5639 tank və hücum topu, 10 min təyyarə, 61 min top və minaatan. Hərbi-dəniz donanması 5 xətt gəmisindən, 4 ağır və 4 yüngül kreyserdən, 43 esmines və minadaşıyandan, 161 sualtı qayıqdan... ibarət idi. Bu dövrdə işlənib hazırlanmış Barbarossa strateji planı sovet qoşunlarının dövrəyə alınıb məhv edilməsini və ölkənin içərilərinə irəliləyərək Arxangelsk-Həştərxan xəttinə çıxılmasını nəzərdə tuturdu. Bu məqsədlə alman komandanlığı müttəfiqlərlə birgə 19-u tank, 14-ü motorlu olmaqla 190 diviziya ayırmışdı. Alman qruplaşması 5,5 mln canlı qüvvədən, 4300 tankdan, 47 min topdan və minaatandan, 4980 döyüş təyyarəsindən, 192 döyüş gəmisindən ibarət idi. SSRİ-yə qarşı Vermaxtın quru qoşunlarının 83 faizi, o cümlədən tanklarının 86 faizi, motorlu diviziyasının 100 faizi, beş hava donanmasından dördü ayrılmışdı.

Faşizm üzərində qələbə bir çox digər xalqlar kimi Azərbaycan xalqının da qanı və canı, külli miqdarda maddi sərvətləri, böyük məhrumiyyətləri hesabına əldə edilmişdir. Azərbaycan hərbi əməliyyat meydanına çevrilməsə də müharibənin əvvəlindən axırınadək onda fəal iştirak edib. Respublikanın bütün maddi və mənəvi sərvətləri, insan qüvvəsi faşizmə qarşı müharibəyə cəlb olunub. İkinci dünya müharibəsində həlak olan 57 milyon adamdan 27 milyonu Sovet vətəndaşları olmuşdur ki, onlardan da 300 mindən çoxu azərbaycanlılar idi.

Müharibənin ən ağır illərində azərbaycanlı əsgər və zabitlər od, alov püskürən cəbhələrdə, o cümlədən Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Ukrayna, Belorusiya, Pribaltika respublikaları uğrunda döyüşlərdə cəsarətlə vuruşmuşdular. Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci və sair milli diviziyalar Simferopolun, Odessanın və başqa şəhərlərin, Polşanın, Çexoslovakiyanın, Yuqoslaviyanın azad olunmasında fəal iştirak etmişlər. 416-cı diviziya Qafqazdan Berlinə qədər döyüş yolu keçərək Berlinin süquta yetirilməsində xüsusi fəallıq göstərmişdir. Həmin döyüşlərdə iştirak edən Hüseynbala Əliyevin, İsrafil Məmmədovun, Həzi Aslanovun, Yaqub Quliyevin, Baloğlan Abbasovun, Ziya Bünyadovun, Heybət Heybətovun, neftçalalı döyüşçülər Ağaşirin Cəfərovun, Əlif Piriyevin və onlarla, yüzlərlə digərlərinin qəhrəmanlıqları dillər əzbəri idi.

Azərbaycanın oğul və qızları faşistlərin Buhenvald, Mauthauzen, Daxau, Zaksenhauzen, Ravensburyuk və başqa ölüm düşərgələrində Avropa ölkələrinin antifaşistləri ilə birlikdə hitlerçilərə qarşı mübarizə aparmış və azərbaycanlı adına layiq fəaliyyət göstərmişdilər. Onlar gizli antifaşist təşkilatı yaratmışdılar. Təşkilatın rəhbərliyinə Mehdi Hüseynzadə, Mirdamət Seyidov, Cavad Həkimli və başqaları daxil olmuşdular. Onların çoxu 1944-cü ilin fevralında əsirlikdən qaçaraq partizanlara qoşulmuş, İ.Qradnik adına İtalyan-Yuqoslav partizan diviziyası tərkibində əlahiddə rota təşkil etmişdilər. Mehdi Hüseynzadə Yuqoslaviya Xalq Azadlıq Ordusunun 11-ci korpusu qərargahı yanında Haribaldi adına xüsusi kəşfiyyat-təxribat qrupuna rəhbərlik etmiş, fövqəladə qəhrəmanlıqlar göstərmişdir. Həmin qrupa M.Hüseynzadə ilə yanaşı, Mirdamət Seyidov, Ənvər Məmmədov, Tağı Əliyev və digər soydaşlarımız daxil idi. Faşistlərə qarşı döyüşlərdə fərqlənən 50-yə qədər Azərbaycan övladı Yuqoslaviyanın orden və medalları ilə təltif olunmuşdur.

1941-1945-ci illərdə qazanılmış Qələbədə Bakı neftinin rolu və əhəmiyyəti barədə ayrıca bəhs edilməlidir. Müharibə Azərbaycandan uzaq şimali-qərb regionlarında başlansa da dünya ağalığına can atan Hitler neft Bakısını zəbt etməyi əsas məqsədlərindən biri sayırdı. Bakı neftinin müharibənin gedişi üçün həlledici rol oynadığını bilən Hitler Qafqaza hücuma başlayanda feldmarşal Manşteynə demişdi: "Biz mütləq Bakını tutmalıyıq. Əgər biz Bakı neftini ələ keçirməsək müharibəni uduzacağıq". Bu məqsədlə Hitler Xəzər boyunca, Qroznı-Mahaçqala-Bakı istiqamətində hücuma keçmək və hərbi təyyarələrdən desant buraxmaq haqqında tank və aviasiya komandanlarına əmr vermişdi. Düşmənin hərbi hissələrinin 1942-ci ilin avqust ayının sonunda Şimali Qafqaza çatması və Qroznı neft rayonunun faşist ordusu tərəfindən zəbt edilməsi Bakı neftinin müharibənin gedişində əhəmiyyətini və rolunu daha da artırdı və onu ön plana çəkdi. İkinci dünya müharibəsi illərində Baltik dənizindən Qara dənizə qədər uzanmış cəbhənin tələb etdiyi bütün benzinin 80 faizini, sürtgü yağlarının 90 faizini Azərbaycan təmin edirdi.

Müharibə illərində Azərbaycan arxa cəbhə kimi də misilsiz xidmətlər göstərib. Bakıda 130-dan çox növdə silah və döyüş sursatı istehsal edilib. Şəxsi vəsaitlərdən müdafiə fonduna 15 kiloqram qızıl, 952 kiloqram gümüş, 320 milyon rubl pul verilib. Cəbhəyə 1,6 milyondan çox zəruri mal, 125 vaqon isti geyim, 1942-ci ilin yayına qədər Bakı müəssisələri tərəfindən yalnız Leninqrad üçün 2 vaqon qara kürü, 40 ton meyvə qurusu, 12 vaqon tomat-püre, qara ciyər ekstraktı, hematogen, jelatin və digər qida məhsulları, medikamentlər, sarğı vasitələri göndərilib.

Ümummilli Lider Heydər Əliyev Qələbənin təmin edilməsində Azərbaycanın əvəzsiz xidmətləri haqqında demişdir: "Tarix bu gün də bilməlidir ki, ikinci dünya müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olmuşdur". Bu xidməti, bu fəaliyyəti, bu rolu biz bundan sonra da hələ çox deməli, çox yazmalı, çox təkrarlamalıyıq ki, dünya bunları yaxşı eşitsin, yaxşı bilsin, yaxşı yadda saxlasın. Bütün bunlar ikinci dünya savaşının ən böyük dərsləri, ən mühüm həqiqətləridir.

# BEYNƏLXALQ ALƏMDƏKİ CİDDİ İQTİSADİ PROSESLƏR ÖLKƏMİZDƏN DƏ YAN KEÇƏ BİLMƏZ

### *Müsahibimiz Neftçala Rayon Maliyyə İdarəsinin rəisi Rəşid Manafovdur*



**— Rəşid müəllim, dünya yenə iqtisadi böhranla üz-üzədir. Beynəlxalq aləm bu ağır böhranı bir neçə il bundan qabaq da yaşamalı olmuşdu. İqtisadi cəhətdən ən inkişaf etmiş ölkələrdən sayılan Birləşmiş Ərəb Əmirliklərindəki, Dubaydakı güclü şirkətlərin nə az, nə çox — 80 milyard dollar borca düşməsi bir daha əyani şəkildə göstərmişdi ki, əsas məsələ heç də maddi cəhətdən zəngin olmaqda deyil, vəziyyəti düzgün qiymətləndirməkdə, optimal iqtisadi siyasət yeritməkdədir. Onda Azərbaycan yaranmış böhrandan nəinki uğurla çıxmışdı, iqtisadiyyatını bir az da möhkəmləndirmişdi, qələbələrinin sayını daha da artırmışdı.**

— Doğrudan da belə olmuşdu. Ona görə ki, bu siyasətin təməlini zəngin dövlətçilik təcrübəsinə malik Ulu Öndər Heydər Əliyev qoymuşdu. Prezident İlham Əliyev bu müdrik, ağıllı siyasətə təkcə sadiq qalmaqla kifayətlənmədi, həm də onu yeni yaradıcılıqla, zamanın tələblərinə uyğun şəkildə inkişaf etdirərək zənginləşdirdi. O vaxtkı böhrandan uğurla çıxmağımızın, itkilərə məruz qalmamağımızın başlıca səbəbi də elə bunda idi.

**— Beynəlxalq aləm yenə böhranlı günlərini yaşayır. Dünya bazarında neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi çox ciddi nəticələrə səbəb olur. Rusiya kimi güclü, nəhəng ölkədə vəziyyətin getdikcə pisləşməsi, narazılığın artması bunu əyani şəkildə göstərir. Şübhəsiz bu digər ölkələrə, o cümlədən Azərbaycana da təsirsiz ötüşə bilməz.**

— Azərbaycan tamamilə neftdən asılı ölkə deyil. Neftdən gələn gəlirlərin vaxtında qeyri-neft sektoruna yönəldilməsi, iqtisadiyyatın şaxələndirilməsi bu gün öz müsbət nəticələrini göstərir. Görülən tədbirlər nəticəsində təkcə Bakı şəhərində deyil, ölkənin digər şəhərlərində, regionlarında yeni-yeni istehsal sahələrinin, sənaye mərkəzlərinin yaradılması, çoxlu sayda iş yerlərinin açılması, ölkənin valyuta ehtiyatlarının durmadan artırılması çox önəmli addımlardır. Respublikamızdakı sabit durum, əmin-amanlıq, əhalinin maddi həyat səviyyəsinin durmadan yüksəlməsi məhz həyata keçirilən bu tədbirlərin bəhrəsidir. Ötən iqtisadi böhran dövründə əksər inkişaf etmiş ölkələrdə əmək haqları, pensiya və müavinətlər azaldığı halda, Azərbaycanda bunun əksini gördük. Əmək haqları, rensiya və müavinətlər durmadan yüksəldi, əhalinin maddi təminatı daha da yaxşılaşdırıldı.

**— Nəhayət, bizdə də manat öz dəyərini bir qədər itirdi.**

— Azərbaycan heç də təcrid olunmuş ölkə deyil, o da dünyanın bir parçasıdır. Şübhəsiz, beynəlxalq aləmdə baş verən proseslər ölkəmizdən də yan keçə bilməz. Bir çox ölkələrlə müqayisədə vəziyyət bizdə xeyli dərəcədə yaxşıdır. Dövlət iqtisadiyyatın möhkəmlənməsi, əhalinin həyat səviyyəsinin aşağı düşməməsi üçün qabaqlayıcı tədbirlər görür. Elə bilirəm bunlar təsirsiz qalmayacaq.

**— Rayonumuzun maliyyə imkanları, mövcub vəziyyət barədə nə deyərdiniz? Büdcəmizdə çətinliklər, dəyişikliklər olmayacaq ki?**

— Yəqin ki, olmayacaq. Əgər ötən il rayonun büdcəsi 16 milyon 323 min manat civarında idisə, bu il bu rəqəm 16 milyon 423 min manat həcmindədir. Əgər rayonun büdcə vəsaiti artırılıbsa, yəqin bu, həmin mənbədən maliyyələşən idarə və müəssisələrə də öz müsbət təsirini göstərəcək.

**— Hansı müəssisələrdir onlar, ümumiyyətlə, rayonun büdcə vəsaitləri ayrı-ayrı təşkilatlar arasında necə bölünüb?**

— Büdcədən maliyyələşən ən böyük təşkilatlar rayon təhsil şöbəsi, rayon mərkəzi xəstəxanası, rayon mədəniyyət və turizm şöbəsidir. Birinciyə 9 milyon 644 min 371 manat, ikinciyə 2 milyon 756 min 697 manat, üçüncüyə 1 milyon 163 min 104 manat vəsait ayrılmışdır. Bununla yanaşı büdcə vəsaitinin 1 milyon 366 min 440 manatı mənzil və kommunal xərclərə, 120 min 975 manatı gənclərlə iş və idman tədbirlərinə, 1 milyon 221 min 673 manatı qanunvericilik və icra orqanlarının saxlanılmasına, 14 min 848 manatı arxiv işinin saxlanılmasına, 135 min 891 manatı isə sair xərclərə sərf ediləcəkdir.

Bizim üçün ən önəmli məsələ ayrılmış vəsaitlərin düzgün, təyinatı üzrə xərclənməsidir. Son vaxtlar bununla əlaqədar bir sıra mühüm qərarların qəbul olunması da məsələnin aktuallığından irəli gəlir. İndiki iqtisadi böhran dövründə biz bu məsələyə diqqəti xüsusilə artırmalıyıq və belə də edəcəyik. Ona görə də şöbəmizin əməkdaşları dövlət başçısı cənab İlham Əliyevin sərəncamlarını, Nazirlər Kabinetinin, Maliyyə Nazirliyinin qərar və göstərişlərini əldə rəhbər tutaraq büdcə vəsaitlərinin düzgün sərf olunmasına nəzarəti daha da gücləndirəcəklər.

**— Rayon büdcəsinin formalaşdırılmasında, zənginləşdirilməsində rəhbərlik etdiyiniz təşkilatın — rayon maliyyə idarəsinin üzərinə də az məsuliyyət düşmür.**

— Biz bu məsuliyyəti həmişə dərindən dərk edirik. Başa düşürük ki, rayon üçün ayrılmış 16 milyon 423 min manat məbləğin 11 milyon 041 min manatı dotasiya şəklində mərkəzi büdcədən ödənilirsə, qalan 5 milyon 382 min manat vəsait isə yerli daxilolmalardan yığılmalıdır. Ona görə əməkdaşlarımız dövlət rüsumlarının, hüquqi və fiziki şəxslərin gəlir, mənfəət, əmlak, torpaq, aksiz, əlavə dəyər, sadələşdirilmiş və yol vergilərinin, başqa vergilərin vaxtında ödənilməsi üçün qanunamüvafiq tədbirlər həyata keçirirlər. Birinci rübün yekununa görə bu sahədəki plan tapşırıqlarının artıqlaması ilə yerinə yetirilməsi həyata keçirilən tədbirlərin nəticəsidir.

**— İndi iş gördürmək istəyən təşkilatların seçim etmələrində, özlərinə münasib qiymətlərin və keyfiyyətin müəyyənləşdirmələrində tender və katirovkaların rolu böyükdür. Bu mühüm tədbiri həyata keçirən təşkilatın rəhbəri kimi bu barədə nə deyərdiniz?**

— Katirovka və tenderlər iş gördürənə, mal alana doğrudan da yaxşı seçim imkanı yaradır. Elə buna görə rayonumuzun təşkilatları da bu tədbirlərdə həmişə fəal iştirak edirlər. Bu il də belə oldu. Tender və katirovkaları vaxtında həyata keçirdik. İş gördürən də, iş görən də razılığa gəliblər, müqavilələr bağlanıb. Deməli, hər şey yaxşı gedəcək. Müqavilələrdə nəzərdə tutulan öhdəliklər vaxtında və keyfiyyətlə həyata keçiriləcəkdir.

**— Rəşid müəllim, bizi maraqlandıran sualları ətraflı cavablandırdınız. Siz yaxşı mütəxəssis, gözəl ziyalı, səmimi insan olmaqla yanaşı, həm də rayon mətbuatını layiqincə dəyərləndirirsiniz. "Gündoğar"a köməyiniz, verdiyiniz dəstək də elə bu keyfiyyətlərinizdən qaynaqlanır. Buna görə sizə səmimi təşəkkürümüzü bildiririk.**

**Müsahibəni apardı:**
**Habil ƏSƏDOV**

# AĞACƏKMƏ KAMPANİYASINDA

Son illər təbiətdə baş verən ciddi dəyişikliklər bizi ekologiyaya, ətraf aləmə qarşı daha diqqətli olmağa sövq edir. Meşələrin kütləvi şəkildə məhv edilməsi, yaşıllıqların qırılması heç də təsirsiz qalmır. İndi boşluqların doldurulması, yaşıllıqların miqyasının genişləndirilməsi istiqamətində bütün dünyada, o cümlədən respublikamızda kütləvi ağacəkmə kampaniyalarının həyata keçirilməsi, meşəsalma hərəkatının getdikcə genişləndirilməsi də məhz bununla bağlıdır. Bu mühüm işdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə yaradılan İDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin həyata keçirdiyi genişmiqyaslı tədbirlər xüsusilə diqqətəlayiqdir. Son illər ölkəmizdə bununla əlaqədar çoxlu sayda ağacəkmə aksiyalarının şahidi olmuşuq.





Leyla xanım Əliyevanın nəcib təşəbbüsü rayonumuzda da geniş əks-səda doğurmuşdur. Neftçalalılar da yaşıllaşdırma işlərində fəal iştirak edirlər. Ötən il həyata keçirilən böyük quruculuq, abadlıq işlərində ağac əkilməsinə, yaşıllıqların genişləndirilməsinə geniş yer verilməsi bunu əyani şəkildə göstərdi. Şəhərin küçələrində, meydanlarında salınan qazonlar bu gün yaşıl xalını xatırladır. Torpağa can verən yağışlardan sonra hər tərəf yamyaşıldır. Bununla yanaşı Neftçala şəhərində, rayonun ayrı-ayrı inzibati ərazilərində əkilən çoxlu sayda ağaclar, gül kolları da bu gün sürətlə boy atmaqdadır.

Amma bunlarla kifayətlənmək olmaz. Elə dədə-babadan insanlar Novruz ərəfəsində, Novruzdan sonra yaşıllaşdırma işlərinə yeni start veriblər. Təzə ağaclar əkiblər, təmizlik işləri həyata keçiriblər. Ənənələrin bu gün də davam etməsi sevindiricidir. Rayonumuzda da Novruz ərəfəsində bahar iməciliklərinə geniş start verilib. İdarə və müəssisələrin kollektivləri, rayon sakinləri bu iməciliklərə həvəslə qoşulublar. Birinci növbədə əmək kollektivləri, fərdi təsərrüfatların sahibləri öz ərazilərində təmizlik apararaq ətrafda səliqə-sahman yaradıblar, yeni ağaclar əkməklə yanaşı köhnə ağaclara, gül kollarına qulluq göstərməyi də unutmayıblar, torpağı şumlayaraq arxları təzələyiblər.

Rayon rəhbərliyinin təşəbbüsü ilə şəhərimizi ikiyə bölən "Axmaz" gölündə ekoloji sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi hər birimizi ürəkdən sevindirir. Bu barədə biz də dəfələrlə yazmışıq. Yaxşı haldır ki, başlanmış işlər bu gün də uğurla davam etdirilir. Gölün aşağı hissəsində, şəhər stadionunun yaxınlığında qazıntı işləri demək olar ki, başa çatdırılmışdır. İndi əsas məsələ sahil boyunca yaşıllıqların salınmasıdır. İməciliklər zamanı diqqətin buraya yönəldilməsi də təsadüfi deyildi. Adamlar səbrlə çalışaraq ilk öncə arxlar, kanallar boyunca əkiləcək ağacların çalalarını qazdılar, görüləcək başqa işləri yerinə yetirdilər. Bir neçə ildən sonra buralar yaşıllığa bürünəndə yəqin heç kimi təəccübləndirməyəcək.

Keçirilən iməciliklər zamanı nəzərdə tutulan digər işlər, tədbirlər də uğurla yerinə yetirildi. Heydər Əliyev Mərkəzinin, başqa idarə və müəssisələrin ərazilərindəki bir sıra yanmış ağaclar yeniləri ilə əvəzləndi, şəhərin küçə və meydanlarına təzə ağaclar əkildi.

İməciliklər davam edir.

**Murad ƏHMƏDOV**

# NEFTÇALADA NOVRUZ BAYRAMI

Artıq ikinci ildir ki, rayonumuzun sakinləri Novruz bayramını yeni məkanda — Kür sahilindəki Bayraq Meydanında, Bulvarda qeyd edirlər. İkinci ildir ki, bayram şənlikləri ilaxır çərşənbədən başlayır. Kür sahilində inşa olunmuş Bayraq Meydanı və Bulvar kompleksi bu il də Novruz sevincini yaşayan uşaqlı-böyüklü hamının toplaşdığı ümumi bir məkan idi. Ötən ilin ilaxır çərşənbəsi Hüseyn Cavid adına mədəniyyət və istirahət parkında keçirilmişdisə, bu il bu tədbir də Kür sahilindəki Bulvarda icra olundu. Burada çərşənbə tonqalları qalandı, rayonumuzun mədəniyyət işçiləri adamların sevincinə yeni sevinc qatdı, müqəddəs çərşənbə günü, çərşənbə axşamı bu gözəl məkanda təntənəli şəkildə qeyd olundu.




Novruzun qədim atributları olan Kosa və Keçəl meydana gəldilər, əmək və baharla bağlı qədim ənənələr yenidən canlandı, şənlik iştirakçılarına əsl çərşənbə sevinci, çərşənbə həyəcanı yaşatdı.

Daha sonra neftçalalılar Bayraq Meydanında, Bulvarda Novruz bayramı şənliklərinin sevincini yaşadılar. Bütün bulvar boyu rayonun kənd və qəsəbələrindən gəlmiş insanlar özlərinin açıq səma altında düşərgələrini təşkil etmişdilər. Yerə xalı-xalçalar döşənmiş, bayram süfrəsi açılmışdı. Milli geyimlərdə olan qadınlar yun darayır, nehrə çalxalayır, samovar qaynadır, ocaq qalayıb fətir bişirir, oğlanlar isə manqal qalayıb kabab çəkirdilər. Bulvarın müxtəlif guşələrində musiqi kollektivləri canlı musiqi nömrələri ilə çıxış edir, milli geyimli rəqqaslar və rəqqasələr rəqs edirdilər. Tədbirə toplaşan hər kəs sevinc və şadlıq içində idi.



Az keçmədi ki, rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev başda olmaqla rayon rəhbərliyinin nümayəndələri də gəlib şənliyə qoşuldular. Meydanın girişində bayramsayağı bəzədilmiş yerdə xonçalar və səmənilər düzülmüş, şirniyyat süfrələri açılmışdı. Alqış və musiqi sədaları altında meydana gələn Kosa və Keçəl, Bahar xanım və Dədə Qorqud şənliyi daha da təravətləndirdilər. Gənc idmançılar qədim milli idman oyunlarını nümayiş etdirir, uşaqlar və yeniyetmələr xoruz və yumurta döyüşdürürdülər. Səs-küydən qorxub mələyən çəpişlərin səsi uşaqları daha da şənləndirirdi. Rayon rəhbərliyi və insanlar açıq səma altında təşkil olunmuş Novruz "pavilyon"larını gəzdilər, Novruz nemətlərindən daddılar, birgə bayram sevincini yaşadılar. Soyuq bahar mehi əsməsinə baxmayaraq şadlanan insanlar belə bir gözəllik məkanını yaradanlara öz minnətdarlıqlarını bildirdilər, bu gənclik, gözəllik məkanında öz sevinclərini bölüşdülər, bir-birlərinə səmimi bayram təbriklərini çatdırdılar.

# Bayram yarmarkasında

Son illər rayonumuzda yaranan gözəl ənənələrdən biri də el bayramlarının, əlamətdar günlərin özünə məxsus şirinliklə, təntənə ilə qarşılanması, bir-birindən gözəl, yaddaqalan tədbirlərin təşkil olunmasıdır. Belə günlərdə rayonumuzdakı ticarət mərkəzində zəngin yarmarkaların təşkil olunması bayramların daha gözəl keçirilməsinə, insanların əhvali-ruhiyyəsinin yüksəlməsinə səbəb olur.

Həmişə sevilən, geniş hazırlıqla, böyük sevgi ilə qarşılanan əziz Novruzun gəlişinin isə bir ayrı hüsnü, bir ayrı təravəti var. Hər il baharla qoşa gələn bu əziz bayram ellərimizə bol-bol sevinc gətirir. Adamlar onun gəlişini daim intizarla gözləyirlər, qədəmlərinə gül-çiçək səpirlər, şəninə gözəl, zəngin süfrə açırlar. Gözəl, zəngin süfrə açmaq üçün isə ilk növbədə keyfiyyətli ərzaq məhsulları lazımdır. Bunu nəzərə alaraq rayon rəhbərliyi ticarət mərkəzində bayramqabağı kənd təsərrüfatı məhsullarının satış yarmarkasının təşkil olunması barədə göstəriş vermişdi. Bununla əlaqədar qəzetimizin ötən sayında biz də məlumat vermişdik, rayon sakinlərini yarmarkada fəal iştirak etməyə çağırmışdıq.



Vəziyyətlə yerində tanış olmaq, adamların rəy və təkliflərini öyrənmək məqsədilə üz tutduq yarmarkanın keçirildiyi ünvana — ticarət mərkəzinə. Özü də bir dəfə yox, dəfələrlə. Hər dəfə də burada zənginlik, bolluq gördük. Növbənöv balıqların, hind toyuğundan tutmuş ayrı-ayrı ev quşlarının, mal və qoyun ətinin, müxtəlif kənd təsərrüfatı məhsullarının çeşidinə söz ola bilməzdi. Buradan istədiyin məhsulu tapıb almaq mümkün idi. Özü də münasib qiymətə. Satan onlar üçün yaradılan şəraitdən, alan isə qiymətdən, keyfiyyətdən razılıq edirdi. Rayon icra hakimiyyəti başçısı aparatının məsul işçilərinin, başçının inzibati ərazi dairələri üzrə nümayəndələrinin, bələdiyyə sədrlərinin və digər müvafiq şəxslərin burada olması məsuliyyəti daha da artırırdı.



Səhər saat 10 olmasına baxmayaraq ticarət mərkəzində kifayət qədər alıcı vardı. Hamı sevinc içində idi. Piştaxtalar boyunca hərəkət edən rayon sakinləri satışa çıxarılan məhsulları diqqətlə nəzərdən keçirir, istədiklərini seçib ala bilirdilər. Çoxlarının əli dolu idi. Bir zənbillə kifayətlənməyərək ikincisini doldurmaq arzusunda olanlar da az deyildi. Onlardan birinə yaxınlaşdıq. Öyrəndik ki, Abasallı kəndindən gəlib. Adı Elşəndir, sürücü işləyir. O dedi:

— Yarmarkaya söz ola bilməz. İstədiklərimi ala bilmişəm. Qiymətlər də münasibdir. İnşaallah, Novruzu ürəyimiz istədiyi kimi keçirə biləcəyik. Belə gözəl şərait yaratdığına görə rayon rəhbərliyinə səmimi minnətdarlığımı bildirirəm.

Ətrafdakı satıcılar da, alıcılar da bu səmimi minnətdarlığa ürəkdən qoşuldular. Satıcılar istehsal etdikləri məhsullarını satdıqlarına, alıcılar isə istədikləri malları tapdıqlarına, bazar qiymətlərindən xeyli ucuz aldıqlarına görə. Bu bizi də ürəkdən sevindirdi. Biz də yarmarkanı xoş əhvali-ruhiyyə ilə tərk etdik. İnandıq ki, Novruz süfrələri zəngin olacaq, adamlar əziz bayramlarını könül xoşluğu ilə keçirəcəklər.

**"GÜNDOĞAR"**

# Məşhur Çanaqqala döyüşündən 100 il keçir

# TÜRKÜN VƏTƏN SEVGİSİ

Hələ 1472-ci ildə son Bizans prinsinin qızı Sofiya ilə evlənən III İvan Bizansın mirasına göz dikərək İstanbula sahib olmaq istəyirdi. Bu səbəbdən də İstanbula Çarqrad adı verilmişdi. İstanbul və Çanaqqala boğazlarının istilası I Pyotrun (Dəli Petronun) da qarşısıalınmaz niyyəti idi. Qara dənizə girmək üçün 1696-cı ildə Azov qalasına hücum etmiş və ağır məğlubiyyətə düçar olmuşdu. Ruslar sonrakı illərdə Osmanlı torpağına hücum etsələr də, təkrar-təkrar məğlub olmuşdular.

Türkiyənin canı boğazlarındadır. Ömrünün son əsryarımında Osmanlı dövlətini yaşadan türk boğazlarının böyük strateji rolu olmuş, beləliklə də, İstanbul şəhərinin varlığını yaşatmışdır. Axı İstanbul əsrlər boyu öz cəlalı, öz ehtişamı ilə türk mədəniyyətindən, türk ürəyindən qidalanmışdır. “Hər səhər Qərb ölkələrinin xadimləri yuxudan durub İstanbul kimi qədim şəhərin türklərin əlində olduğunu görəndə onların qarınlarında sancı başlayır” deyirdi Mustafa Kamal Atatürk.

Hərbi nazir və baş komandan vəkili Ənvər paşadan cəbhədə bir vəzifə istəyən Mustafa Kamalı alay komandiri təyin etmişdilər. Həmin vaxtlarda müttəfiq düşmən donanması Çanaqqalanın istehkamlarını bombardman etməyə başlamışdı. Belə vaxtda orduya rəhbərlik istedadlı hərbçinin əlində olmalı idi. Mustafa Kamal tez bir zamanda — 23 yanvar 1915-ci ildə 19-cu tümenə (diviziya) komandan təyin edilmişdi. Amma çox bərbad durumda olan 19-cu tümenin yerini tapmaq belə mümkün deyildi. Tümenin qurulduğu yer Təkirdağ idi. Mustafa Kamal 2 fevral 1915-ci ildə çox mürəkkəb və keçilməz olan bu əraziyə tezliklə özünü çatdırmış, coşqun və tükənməz enerjisi ilə əsgərlərdə döyüş ruhu və qələbə əzmi yaratmışdı. Tümendə çox şey çatmırdı. Osmanlı dövlətinin yıxıldığı bir vaxtda hər şeyin dərhal tapılması mümkünsüz idi. 57 və 59-cu piyada alayları, bir topçu batareyası 19-cu tümenə qatıldı. Mustafa Kamal tümenə komandan olmasından razı idi, çünki o, Balkan müharibəsi vaxtında boğazları ələ keçirmək istəyən bolqarlarla qanlı döyüşlərə girmişdi. O, buradakı ərazilərə bələd idi.

Böyük əsgər, öndər və dövlət adamı Atatürk deyirdi ki, insanları bir-birinə yaxınlaşdıran, onları bir-birinə sevdirən, maddi və mənəvi ehtiyaclarını təmin edən yeganə vasitə fəaliyyət və enerjidir. O, kamil bir hərbçi olsa da, müharibə tərəfdarı deyildi. Ona görə də “Yurdda sülh, cahanda sülh” demişdi. Çanaqqala türk xalqının Tanrı qisməti idi. O pak məkana türkün ruhu hopmuşdur. Çanaqqala savaşı müdafiə savaşı idi. Burada məğlub olmaq mümkünsüz idi. Türk xalqının ürəyində Çanaqqalaya zəfər tağları ucaldılıb. 350 min şəhidin qanı ilə suvarılıb bu torpaq. Bu da Çanaqqalanı müqəddəsləşdirdi.

Hələ 1914-cü ilin noyabr-dekabr aylarında boğazlara dağıdıcı basqınlar edən müttəfiq düşmən donanmasının hərbi heyəti türkün mənəvi əzəmətini, ruhi qüvvəsini ehtimal da etmirdilər. Hərbi Dəniz naziri Çörçill Aralıq dənizi donanmasının admiralı ilə 28 yanvar 1915-ci ildə keçirdikləri toplantıda “Çanaqqala boğazından zorakılıqla keçilməsi” haqqında qərar vermişdilər. Bu görüşdə bir-iki sualtı qayıq da göndərilməsi nəzərdə tutulmuşdu. İngiltərənin hərbi naziri Lord Kişner əda ilə demişdi: “Gəlibolu şəhərinin qarşısında bir sualtı qayıq hərlənib su üzünə çıxsa, ingilis bayrağını üç dəfə yelləndirsə, yarımadadakı bütün türk qarnizonu dabanlarına tüpürüb nəfəsini Bolayıda alacaq.”



Xanoğlan MƏMMƏDOV

Boğaz müharibəsini İngiltərə və Fransa başlamışdı. Əsas məqsəd Rusiyaya lazımi yardımları çatdırmaq idi. Ona görə də onlar istilaçılıq və müstəmləkəçilik siyasətini inadla davam etdirərək, Çanaqqalaya ən güclü donanmalarını göndərmişdilər. Onlar həm də almanları şərqdə yeni cəbhə açmağa məcbur etmək istəyirdilər.

Düşmən gəmilərini tələyə salmaq üçün mart ayına qədər bütün boğaz boyunca 400-dən çox mina düzülmüşdü. “Nüsrət” gəmisinin qəhrəman əsgərlərinin ölümün gözünə dik baxa-baxa dənizə düzdükləri minalar güclü donanmaları darmadağın etmişdi. Qələbə inamı ilə hərbi yürüşə çıxan Çörçill tək bir döyüşdə donanmasının üçdə birini itirməsini etiraf etməyə məcbur olub demişdi: “1915-ci ildə Avropada milyonlarla insanın həyatı bahasına başa gəlmiş heç bir hücum “Nüsrət”in tökdüyü minalar qədər təsirli olmamışdır.”

Çörçill xatirələrində türkün zəfəri ilə qurtaran Çanaqqala müharibəsini “Yeganə məğlub olduğum müharibə...” adlandırmışdı. Sonradan Londonda Ənvər paşanın oğlu Əliyə də bu sözləri demişdi: “Sizin atanız mənim karyeramı 20 il geriyə atmış və dünya siyasi tarixinin gedişini dəyişdirmişdir.” Bu acı etiraf türk hərbi qüdrətinin təntənəsi idi.

Türk dənizçilərinin Çanaqqala döyüşləri vaxtında göstərdikləri xidmət misilsiz dəyərə malikdir. Onlar Mərmərə nəqliyyatının qorunmasında, Çanaqqalanın quru qoşunlarının müdafiəsində və düşmənin çəkilməsində böyük yardımlar göstərmişlər.

Budur, tarixə “Ən uzun gün” kimi düşən 18 mart 1915-ci il. Müttəfiq düşmən ordusu ilə türk ordusu üz-üzə dayanmışdı. Burada hər saatın öz hökmü vardı. Fasiləsiz döyüşlər saatlarla, dəqiqələrlə hesablanırdı. Martın 8-də körfəzlərə yüzlərlə mina düzülmüşdü. Düşmən güclü donanmasına çox güvənirdi. Düşmənin 622 topuna qarşı türklərin 179 topu vardı. 18 martın səhərində ölüm-dirim anı gəlib çatır. Açıq hava, sakit dəniz böyük hücum üçün əlverişli şərait kimi qurbanlarını gözləyir.

Saat 10:30-da düşmən 12 hərb gəmisi ilə yaxınlaşır, 6 ingilis hərb gəmisi isə boğaza girir, türk batareyalarını atəş altına alır.

Saat 14:00-da türklər 4 fransız gəmisini 650 əsgəri ilə böyük itkiyə düçar edir.

Saat 16:15-də “Okean” zirehli gəmisi türk topçusunun sərrast atəşi ilə sulara gömülür.

Saat 18:00-da düşmənin üç nəhəng zirehli gəmisini Çanaqqala boğazının dərinliklərinə göndərirlər.

18 mart zəfəri türk topçusunun, mina donanmasının və qəhrəman mehmetciyinin şah əsəridir. Bu əsərin səhifələrini Atatürk cəsarətinin inciləri bəzəyir. Atatürk ağıllı cəsarətin rəmzi idi. O, cəsarəti komandirlərin tabeçiliyi üzərində kəsərli silah kimi başa düşür və təsdiq edirdi ki, cəsarət komandiri əsgərlərin gözündə fövqəl qüvvəyə çevirir. Atatürk 25 aprel 1915-ci il döyüşlərini belə qiymətləndirir: “Türklərin bundan daha yüksək fədakarlıq göstərdikləri günləri xatırlamıram. Bu, onların səbat və mətanəti, zabitlərimizin, komandirlərimizin şücaət və əzmi sayəsində qazanılmış önəmli bir günüdür.”

25 apreldə səhər tezdən dünyanın ən güclü donanmasının köməyilə sahilə çıxan düşmən qüvvələri az müddət içində Mustafa Kamalı qarşılarında görürlər. Hələ türk ordu komandirlərinin vəziyyəti yaxşı dərk etmədikləri bir vaxtda polkovnik Mustafa Kamal düşmən hücumunun başlandığı yeri bütün məsuliyyətilə öz üzərinə götürüb hücuma keçir. Onun bu cəsarətli və çevik hərəkəti Çanaqqala döyüşlərinin taleyini dəyişdirir. Atatürkün qətiyyəti, əsgərindən tutmuş komandirinə qədər hamının var qüvvəsi ilə döyüşməsi nəticəsində müttəfiqlər əllərindəki çoxlu silahın, nəqliyyatın və hər cür ləvazimatın olmasına baxmayaraq türk qüvvələrini yenib boğazı aça bilmədilər.

Bu döyüşdə quruya qoşun çıxaran düşmənə qarşı 57-ci alayı döyüşə hazırlamış və düşmənə qəti zərbəni endirmək üçün tarixi əmrini vermişdi: “Mən sizə hücuma keçməyi yox, ölməyi əmr etmişəm.” 57-ci alayın sonuncu əsgəri şəhid olmuş döyüş yoldaşlarının şərəfi olan bayrağı bir yerdən asıb əbədiyyətə qovuşur. O bayrağı avstraliyalılar qələbə rəmzi kimi muzeydə nümayiş etdirirlər. Bayrağın altında yazılan sözlər bunlardır: “Bu alay bayrağı döyüş meydanından gətirilib, amma heç cür əsir edilə bilməyib. Çünki türklərin kültüründə ən son növbətçisi şəhid olmadan bayrağı əsir ala bilməzsiniz. Ona görə də bu bayrağın altından lütfən ehtiramla əyilib keçin.”

Bu da istiqlal şairi Akif Ərsoyun şəhidlik zirvəsinə inamı:

**Ey şəhid oğlu şəhid, istəmə məndən məqbər,**
**Sən ağuşunu açmış duruyor Peyğəmbər.**

Bu da türkün möcüzəsi: 250 kiloluq top mərmisini təkbaşına qaldırıb topun lüləsinə qoyan və hədəfə sərrast zərbə endirən bir türk əsgərinin mətanəti əsl qəhrəmanlıq dastanı deyilmi? Adi bir mehmetciyin (mehmetcik — Məhəmmədin əsgəri deməkdir) inamı, cəsarəti, Allah sevgisi hardan qaynaqlanır? O mənbələr düşmənə nifrət, torpağa məhəbbət, türk əqidəsinə sədaqət və islami dəyərlərdir.

Şərqin tükənməz sərvətini talamaqdan doymayan qərbin quduzlaşmış dövlətləri Çanaqqalaya sahib olmaq üçün var qüvvəsi ilə hücum qəsdində idi. Osmanlı bölgəsi Trablusqərbi (Liviyanı) avropalılar işğal etmiş, indi də üzünü Çanaqqalaya tutmuşdu. Labüd müharibə alışmağa başlayan tonqal kimi idi. Lahon şəhərində böyük bir meydanda təlatümlü izdiham ağır həyəcanlar keçirirdi. Xalq Çanaqqalanın işğalının qaçılmaz olduğunu dərk etdiyi üçün bütün varidatını Osmanlıya göndərirdi. İzdihamın ortasında nitq kürsüsü qoyulmuşdu. Hindistanın islami şair və filosofu Məhəmməd İqbal bura gəldi və kürsüyə çıxdı. Bəlağət tutisi kimi ötdü. Fəsahət rəmzi olan çıxışı ilə insanları coşdurdu, müsəlmanlara yardım etməyin fəzilətini açdı. Nitqi ilə səfərbər etdiyi ürəklərə təsəlli gətirdi. Tarixlərə düşmüş bu nitqin bir məqamını diqqətə çatdıraq:

“Həyatla yuxu arasındakı kimi idim. Mələklər məni həzrəti Peyğəmbərin hüzuruna apardılar. Həzrəti Peyğəmbər buyurdu: “Ey hicar bağçasının bülbülü, sənin hər qönçən tərənnümünün atəşi ilə isindi. Sənin könlün eşq şərabı ilə coşub daşır. Sənin coşqunluğun Allaha səcdə və niyazla bağlıdır. Sən dünyanın alçaqlığından göylərə doğru ucaldığın zaman mələklər sənə yüksəkliyin sirrini öyrətdilər. Cahan bağçasından çıxıb mənə bir qorxu kimi yaxınlaşdın. Söylə, gələrkən mənə hansı hədiyyəni gətirdin?” Mən də dedim: “Ya Məhəmməd, dünyada bir rahatlıq yox, bütün sevdiklərimdən ümidimi kəsdim. Varlıq aləmində minlərlə gül, lalə var, amma nə rəng, nə qoxu, hamısı vəfasızdır. Sənə gətirməyə bircə şeyi layiq bildim: mübarək təkbirlə süslənmiş bir şüşə şəhid qanıdır ki, tayı-bərabəri cənnətdə də yoxdur. Bu sənin ümmətinin namusu, vicdanıdır. Bu, Trablusqərb və Çanaqqala şəhidi mehmetciyin qanıdır.”

Bu şəhid qanı yerdə qalmadı. Allah ruhunu şad etsin, Məhəmməd İqbal! Bu qanlı hərb müttəfiq dövlətlərin acgözlüyü və qəddarlığı üzündən iki ilə qədər uzandı. Torpağa, yurda məhəbbət uğrunda qanı axan qəhrəmanların dünyanı silkələyən bir cahanşümul qələbəsi azadlıq eşqi ilə yaşayan xalqlara Kəhkəşan yolunu açdı. İslama iman gətirənlərin Allah eşqi, Peyğəmbər sevgisi qəhrəmanlar yurdunda Çanaqqala qələbəsinin ehtişamını yaşatdı. Budur, təkrarolunmaz ehtişamın işıqları:

Çanaqqala müharibəsində türk əsgərinin sonsuz vətən sevgisi qərbin məğlubedilməzliyi haqqında əfsanəni darmadağın etdi.

“Dünya siyasi tarixinin gedişatını dəyişdirən” (Çörçill) türk millətinin qüdrəti cahana bəlli oldu.

Birləşmiş düşmən donanmasının İstambula girməsi ümidi daşa dəydi.

Avropanın ən varlı ölkəsi İngiltərə müharibə nəticəsində ağır xarici borcu olan dövlətlər sırasına düşdü.

İngiltərə və Fransa kimi istismarçı dövlətlər müstəmləkələrində nüfuzlarını tamamilə itirdilər.

Rusiyanın işğalçılıq ümidləri puça çıxdı. Müttəfiqlərdən yardım ala bilməyən Rusiyanın cənuba, isti dənizlərə, İran bölgəsinə çıxması əngəlləndi. Nəhayət, çarizmin yıxılmasına, bolşeviklərin hakimiyyətə gəlməsinə zəmin yarandı.

Rusiya yeni türk hökuməti ilə müqavilə bağladı və müttəfiqlərə qarşı düşmən mövqe tutmalarına səbəb oldu.

Asiya, Afrika xalqlarında özlərini güclü hesab edən Avropaya qalib gələcəklərinə inam yarandı.

Türkiyənin istiqlal müharibəsində qazandığı qələbəni asanlaşdırdı.

Türkiyə isə öz millətini əsarətdən qurtaran Mustafa Kamal Atatürk kimi müqtədir rəhbər və sərkərdə qazandı.

# Avropa Oyunları və siyasi “oyunbazlar”

SSRİ dağılandan sonra dünyanın, o cümlədən Avrasiya materikinin siyasi xəritəsi dəyişdi. Yeni müstəqil dövlətlər yarandı. Bu siyasi xəritəyə baxanda doğma Azərbaycan dövlətimiz dünyanın sinəsində döyünən bir ürəyi xatırladır. Həm coğrafi, həm də siyasi baxımdan. Bəxtinə Ümummilli Liderimiz Heydər Əliyev kimi bir xilaskar, bir memar düşən Azərbaycan Respublikası 24 illik müstəqilliyi tarixində özünün sürətli inkişafına görə həm dostlarını, həm də düşmənlərini heyrətdə qoymuşdur. Möhtərəm Prezidentimiz İlham Əliyevin dediyi kimi, bu gün Azərbaycan nəinki regionda, bütün dünyada bir sabitlik adasıdır. Bunu bütün dünya, eləcə də bütün Avropa bilir.

Ötən hər bir gün bizi ölkəmizdə keçiriləcək ilk Avropa Oyunlarına yaxınlaşdırır. Bu oyunlarda Avropanın 49 ölkəsindən 6000-dən çox idmançı 20 idman növü üzrə mübarizə aparacaq. Deməli, 49 ölkədən idmançı qonaqlarımız olacaq. Bununla yanaşı, neçə ölkədən turist qonaqlarımız da gələcəklər respublikamıza. Şübhəsiz ki, yarışa qatılacaq ölkələrin başbilənləri öz nümayəndələrini haraya, hansı dövlətə göndərdiklərini çox gözəl bilirlər. Aydın məsələdir ki, heç kəs porblemli, dava-dalaşlı ailəyə qonaq getməz. Ən azı idmançılarını respublikamıza ezam edəcək ölkələr bizdəki əmin-amanlıq, sabitlik, mədəni səviyyə, tolerantlıq barədə tam və dəqiq məlumatlara malikdirlər və bunun dəfələrlə şahidi olublar.

Amma çox təəssüf ki, ölkəmizin dünya miqyasında sürətlə tanınmasına və inkişaf etməsinə münasibət heç də birmənalı deyildir. İstər xaricdə, istərsə də daxildə olan bədxahlar, inkişafımızı gözü götürməyənlər hələ də mövcuddur. Əgər xatirinizdədirsə, 2012-ci ildə ölkəmizdə keçirilən “Avroviziya” mahnı müsabiqəsi ərəfəsində də xarici və daxili bədxahlardan ibarət “xor kapellası” necə bir paxıllıq “müsabiqəsi” keçirdilər. Səs-səsə verdilər, bütün dünyanın KİV-lərində, xəbər portallarında, internetdə... “dünyavizion” bir yarışma keçirdilər, amma heç nəyə nail ola bilmədilər.

Xaricdə yaşayan düşmənlərimizi, erməni lobbisini, antiazərbaycan qurumlarını başa düşmək asandır. Onların mövqeyi, təbii ki, belə də olmalıdır. Atalar demişkən, qarı düşmən dost olmaz. Amma “sapı özümüzdən olan baltalar”ın keçiriləcək Avropa Oyunları ərəfəsində çıxardıqları “oyun”ları, dünyanın KİV-lərinə ötürdükləri əsassız, dövlətimizin imicini aşağılayan məlumatları, düşmənlərimizi bizə güldürən hərəkətləri heç bir məntiqə sığmır.

Məgər onlar Amerika və Qərb “demokratiya”sının İraq, Misir, Suriya, Liviya, Yəmən kimi ərəb ölkələrini xarabazarlığa çevirdiyini görmürlərmi? Əgər onlar çəkdikləri bu “zəhmət”i Qarabağın xilasına yönəltsəydilər, buna vətənpərvərlik deyərdik. Bir milyondan artıq soydaşımızın, qaçqınımızın, köçkünümüzün faciəsinə göz yumub, bir-iki cinayətkarın, vətən xaininin hüquqlarının müdafiəsinə qalxanların vətən sevgisinə necə inanmaq olar?!

Adi bir misal: siyasi əqidəsinə görə 28 il 4 ay həbsə məhkum olunmuş böyük türk şairi Nazim Hikmət tam 16 il Bursa həbsxanasında yatdı, vətənindən qovuldu, qürbətdə, Moskvada dünyasını dəyişdi, amma ölənə kimi vətəni Türkiyəyə arxa çevirmədi, onun mənafeyini heç nəyə dəyişmədi, hətta Atatürkü belə yüksək qiymətləndirdi. Bizim bu bəzi “müxalif”lər görəsən Nazim Hikmətin yerinə olsaydılar nə edərdilər?! Onlar unudurlar ki, söhbət Azərbaycanın mənafeyindən gedəndə iqtidar-müxalifət söhbəti aradan qalxmalı, millət bir mövqedə — milli dövlətçilik, millətin mənafeyi mövqeyində dayanmalıdır. Damarlarında türk-azəri qanı axan şəxs xarici təşkilatları Bakıda keçiriləcək Avropa Oyunlarını baykot etməyə çağırmamalıdır. Ölkəsini sevən şəxs ölkəsində çaxnaşma yaranmasına, millətinin əcnəbilərin gözləri qarşısında nüfuzdan düşməsinə, nəhayət, ermənilərin “vəhşi, barbar azərbaycanlılar” mifinin “göyərməsinə” rəvac verməməlidir.

Bir həqiqət gün kimi hamıya aydındır ki, ölkəmizdə keçiriləcək Avropa Oyunlarının istər xaricdəki, istərsə də daxildəki “oyunbaz”ları heç nəyə nail ola bilməyəcəklər. Onlar özlərini biabır etmək üçün növbəti “imkan” gözləyirdilər, buna da “nail” olacaqlar. Azərbaycanın dünya şöhrətli idman nüfuzunu, mədəniyyət nüfuzunu aşağılamaq istəyənlər heç nəyə nail ola bilməyəcəklər. Yel qayadan heç nə apara bilməyəcək, karvan da öz yolu ilə keçəcək.

**Z.MƏMMƏDOV,**
**“Gündoğar”ın müxbiri**

# Kitablara qayıdaq?!

— Bu qapını döymüsünüzmü?
— Yox.
— Elə isə döyün.
Viktor Hüqo.

Bu balaca epiqraf böyük Viktor Hüqonun ölməz “Səfillər” romanındandır. Ömrü həbsxanalarda keçən keçmiş katorqa dustağı Jan Valjan tanımadığı bir əyalət şəhərində gecələməyə yer axtarır. Lakin onun keçmiş məhbus olduğunu bilənlər dərhal qapını üzünə bağlayırlar. Əlacsız qalıb yoldan keçən bir nəfərə dərdini danışır. Həmin adam mərhəmətli bir keşişin qapısını ona göstərir...

İndiki dövrümüzdə döyülən qapılar həddən artıq çoxdur. Özəl şirkətlər, özəl banklar, özəl apteklər, özəl marketlər... səxavətlə qapılarını hamının üzünə açır, daha doğrusu açıq saxlayır. Yağışdan sonra göbələk kimi artan bu özəl xidmət rbyektləri həmişə müştəri ilə dolu olur. Hətta qapılarında növbəyə duranlar üçün nizam-intizam yaratmağa polis də çağırırlar. Amma bir gözəl xidmət obyekti də var ki, özəl deyil, heç özəl olmasını ağıla gətirmək də mümkün deyil. Onun da qapıları hamının üzünə açıqdır, amma nədənsə bu qapılara üz tutan çox azdır. Həmin obyektin adı kitabxanadır. Unudulan və unudulmaz kitabxanalar!

XX əsrin əvvəllərində böyük Mirzə Ələkbər Sabir bizim kitaba, kitabxanalara olan münasibətdən “ləzzətlə” söhbət açırdı:

**Nə bilirdik nə zəhirmardı kitab,**
**Biz olan evdə haçan vardı kitab?!**

Sonralar bəyənmədiyimiz sovet hökuməti əhalini kütləvi surətdə savadsızlığın ləğvinə cəlb etdi, nəinki ibtidai, natamam orta və orta məktəblər, hətta yaşlılar üçün savad kursları da açdı. Bütün kəndlərdə, qəsəbələrdə, idarə və müəssisələrdə kitabxanalar təşkil olundu. İş o yerə çatdı ki, insanların evlərində də şəxsi kitabxanaları yarandı. Kitab hədiyyə etmək adi vərdişə çevrildi. Lakin illər ötdü, zaman dəyişdi, əlində bədii kitab gəzdirən adama bir az qəribə nəzərlərlə, kinayə ilə baxmağa başladılar. Kitablara soyuq münasibət o yerə çatdı ki, bahalı kitab şkaflarında kitabların yerini bahalı “xrustal” qab-qacaqlar, suvenirlər tutdu. Kitablar arxa plana keçdi, sandıqlara yığıldı, anbarlara atıldı. Kitab mağazaları baqqal dükanlarına çevrildi.



Kitabxanalara gedən cığırları da yavaş-yavaş biganəlik otları basdı...

İstəsək də, istəməsək də, indiki dünya biznes dünyasıdır. Silah biznesi, dərman biznesi, hətta sarımsaq biznesi, soğan, kartof, noxud biznesi də var. Amma kitab biznesi yoxdur. Görünür bu biznesə heç ehtiyac da yoxdur, nə alan var, nə satan. Və görünür böyük Sabir bu günü də dünəndən görürmüş!..

Amma nə olur olsun, adam hər şeyi asanlıqla unuda bilmir. Hər bir insan öz ibtidai sinif müəllimini və ilkin dərs kitabımız olan doğma “Əlifba”nı unuda bilməz. Ən daş ürəkli adamlar da ilk müəllimini və ilk dərs kitabını xatırlayanda riqqətə gəlir, ilkinliyinə, saflığına, uşaqlığına qayıdır.

Əslinə qalsa, əsl kitab doğrudan da müqəddəsdir. Məgər böyük Yaradan insanları doğru yola yönəltmək üçün dörd səmavi kitabı — Tövratı, Zəburu, İncili və Quranı yer üzünə göndərməyibmi? Bəşər sivilizasiyası həmin kitablarla formalaşıbsa niyə kitablardan üz döndərməliyik? Əgər qonşu Gürcüstanda neçə əsrdir ki, gürcü qızları Şota Rustavelinin “Pələng dərisi geymiş pəhləvan” əsərini ər evinə cehizlik kimi aparırlarsa, bunun nəyi pisdir ki?! Əgər İraqda yaşayan Kərkük türkləri Məhəmməd Füzulinin “Türk divanı”nı qızlarına cehiz kimi qoşurlarsa, niyə biz də belə etməyək? Bəzi hallarda “Qurani-Kərim”i yeni ailə quran gənclərə hədiyyə edirlər. Çox gözəl, çox pakizə. Görək bizim cənab bəylə xanım gəlin, o kitab hətta ana dilimizdə olsa belə, onu bir dəfə açıb oxuyurlarmı? Əsla yox. Aparıb şifanerin və ya böyük bir serevantın üstündə ən hündür və əlçatmaz yerə qoyurlar ki, “Quran” hər şeydən yuxarıda olmalıdır. Olsun. Qoy “Quran” ilk cehizlik kitab olsun, amma eyni zamanda Nizaminin “Xəmsə”si, Sabirin “Hophopnamə”si cehiz kimi qoşulsa və ya gənc ailəyə hədiyyə verilsə, görəsən bunun kimə və nəyə xətası dəyər?! Əgər istəsək vermək olar. Füzulinin “Leyli və Məcnun”unu, Rəşad Nuri Güntəkinin “Çalıquşu” romanını, Lev Tolstoyun “Anna Karenina”sını, Şeksprin “Romeo və Cülletta”sını cehiz qoşmaq olar, hamısı birlikdə olsa lap gözəl olar. Cehiz xərclərinin kitab xatirinə 15-20 manat artması cibimizə o qədər də zərər yetirməz, əksinə, mənəvi zənginliyimizi nümayiş etdirər, qızımız sabah qayınanasının saçından yapışıb sürüməz, oğlumuz o kitabları görəndə bir az utanıb çəkinər, qoçuluqdan-lotuluqdan uzaq olar...

...Kitab mağazaları bağlansa da doğma kitabxanalarımız hələ də qalmaqdadır, qapıları da həmişə üzümüzə açıqdır. Hansı kitabı hansı müddətə oxumaq istəsək, vallah, verəcəklər. Özü də girovsuz, zaminsiz, faizsiz, ödənişsiz, müqaviləsiz, minnətsiz, pulsuz-pənəsiz! İndi nə edək? Kitabxanaların qapısını döyək, ya döyməyək?! Səninləyəm, ey, ay adam balası, ay insan nəvəsi!..

**Zabil PƏRVİZ**

# Yaddaşlarda yaşayanlar: SƏN DOĞRUDAN DA MƏLƏK İDİN

Biz Mələyi rayonda Beynəlxalq Qızıl Xaç Cəmiyyəti tərəfindən keçirilən itkin ailələrlə görüşdən tanımış və onunla sirdaş olmuşduq. Bizi birləşdirən acı talelərimiz idi. Mənim qardaşım Azad, onun həyat yoldaşı Yaşar Qarabağ uğrunda gedən döyüşlərdə itkin düşmüşdülər. O vaxt cəmiyyətin bizim ərazi üzrə nümayəndəsi olan Mələk tədbirin təşkili üçün az əziyyət çəkməmişdi. Ən başlıcası o çox sadə, səmimi bir insan idi.

Mələyin qəfil ölüm xəbəri həm onu tanıyanlara, həm də əzizlərinə amansız zərbə vurdu. O, soyuq, şaxtalı bir qış günündə dünyaya göz açmışdı, elə soyuq bir qış gecəsində də bu dünyaya əlvida dedi, gözlərini əbədi yumdu. Həyata keçməyən neçə-neçə arzuları, istəkləri qaldı ürəyində...

Tək övladını min bir əziyyətlə böyüdüb boya-başa çatdırmışdı. Təzə-təzə özünə gəlmişdi ki, qəfil ölüm arzularını həyata keçirməyə qoymadı. Hey oğlu Elmir üçün xəyallar qururdu. Onun üçün necə nişan aparacağından, xınayaxdı, toy edəcəyindən danışardı. Deyirdi xeyir işlərdən kənarda olsam da oğlumun xeyir işində özüm üzük taxacam gəlinimin barmağına, başına şalı özüm salacam, gəlin maşınında özüm oturacam qabaqda. Elə bu həvəslə də evini təmir elətdirmişdi, yeni əşyalar almışdı. Deyirdi nə qızlığımdan, nə də gəlinliyimdən yarımamışam, qoy hamısı təzə olsun.

Tək ümidi oğlu Elmir idi. Hər kəlməsində oğlunun atasız olmadığını, arxasında dağ kimi dayandığını hiss etdirirdi. Həmişə deyirdi oğlumla toylarda ata mahnısı çaldırırıq. Amma indi oğlun sənin üçün “Ana” mahnısı çaldıracaq.

Oktyabr ayında qaynı İlhamın oğlunun toy məclisi idi. Elə bil ürəyinə dammışdı. Elmir üçün arzuladığı “xına” gecəsini böyük həvəslə qaynı oğlu Elçin üçün həyata keçirdi. Bakıdan “xına” paltarı, xonçalar, güllər, konfetlər aldı, gözəl bir toy məclisi həyata keçirdi. Yoldaşının qara xəbərindən sonra ilk dəfə qaynı oğlunun xeyir işində əlinə xına qoydu. Elə bil öləcəyini bilirdi. Oğlu üçün xəyalında qurduğu toy məclisinin şiriniliyini Elçinin xeyir işində yaşadı. Amma toyu görmək ona qismət olmadı, arzusu ürəyində qaldı. Toya dəvət etdiyi yaxınları: Beynəlxalq Qızıl Xaç Cəmiyyətinin nümayəndələri Elmira Mirzəyeva, Reyhan Canıyeva, Ehtiram həkim, Qarabağ Əlilləri İctimai Birliyi rayon şöbəsinin sədri Aydın Aslanov və digərləri bu il yanvarın əvvəlində hüzürünə gəldilər. Adı Mələk olan bu xeyirxah insan axırda bir mələk kimi də həyatdan köçdü. Geridə heç kimə tapşıra bilmədiyi boynu bükük Elmiri qoydu...

Deyirəm kaş Allahın bir möcüzəsi olaydı. Uzun ayrılıqdan, həsrətdən sonra atası Yaşar qayıdıb gələydi. Yalqız qalmış Elmiri tək qoymayaydı bu dünyada.

**Zeynəb ZEYNALOVA,**
**Astanlı kəndi**

# GÜNDOĞAR

8 aprel 2015-ci il - № 11-12 (6562)

SON SƏHİFƏ


## Neftçala Rayon Təhsil Şöbəsində

# FƏNN OLİMPİADALARININ RESPUBLİKA MƏRHƏLƏSİNİN YARIMFİNAL TURU: 9 NƏFƏR BİRİNCİ, 5 NƏFƏR İKİNCİ, 4 NƏFƏR ÜÇÜNCÜ

Qəzetimizin 20 fevral 2015-ci il tarixli nömrəsində fənn olimpiadalarının birinci mərhələsinin başa çatması barədə məlumat vermişdik. Qeyd etmişdik ki, onlardan 45 nəfəri növbəti mərhələyə — respublika mərhələsinin yarımfinal turuna vəsiqə qazanmışdır.

Mart ayının ikinci bazar günü respublika mərhələsinin yarımfinal turuna yekun vurulmuşdur. Turda iştirak edən 3700-ə yaxın şagirddən 480 nəfəri ən yüksək nəticələrə nail olmuşdur. Sevinirik ki, onların arasında neftçalalı şagirdlər də az deyildir.

Rayon təhsil şöbəsindən aldığımız məlumata görə Qədimkənd kənd tam orta məktəbinin şagirdi Nərmin Əlibala qızı Abuşova, Bankə qəsəbə 2 saylı tam orta məktəbinin şagirdi Mədinə İman qızı Xantemirova, Xıllı qəsəbə 1 saylı tam orta məktəbinin şagirdi Zəbulla Davud oğlu Cavadov, Yuxarı Qaramanlı kənd tam orta məktəbinin şagirdi Ülvi Namus oğlu Abızadə, Qədimkənd kənd tam orta məktəbinin şagirdi Şura Əfrasiyab qızı Gözəlova, Xıllı qəsəbə 1 saylı tam orta məktəbinin şagirdi Əmrah Azər oğlu Qədirli, şəhər 3 saylı tam orta məktəbinin şagirdi İlham Hacıbala oğlu Səmədov, "Muğan" liseyinin şagirdi Fatimə Yaşar qızı Əsgərova, Həsənabad qəsəbə tam orta məktəbinin şagirdi Güntəkin Nizami qızı Möhnətli birinci, Qədimkənd kənd tam orta məktəbinin şagirdi Nərgiz Ramiz qızı Abdullayeva, şəhər 2 saylı tam orta məktəbinin şagirdi Ayşən İlham qızı Əzizova, Boyat kənd tam orta məktəbinin şagirdi Nicat Asif oğlu Qəfərov, şəhər 4 saylı tam orta məktəbinin şagirdi Sadiq Tərlan oğlu Hüseynli, Aşağı Surra kənd tam orta məktəbinin şagirdi Ulduz Rasim oğlu Mustafayev ikinci, Həsənabad qəsəbə tam orta məktəbinin şagirdi Səbuhi Nahid oğlu Fərəcov, Xolqaraqaşlı kənd tam orta məktəbinin şagirdi Ülvi Vüqar oğlu Əliyev, Aşağı Surra kənd tam orta məktəbinin şagirdi Sevinc Fərrux qızı Xəlilli, Bankə qəsəbə 1 saylı tam orta məktəbinin şagirdi Səbinə Vüqar qızı Abdullayeva üçüncü yerlərə layiq görülmüşlər.

Respublika fənn olimpiadasının yarımfinal turunda birinci yerə layiq görülən şagirdlər aprel ayında keçiriləcək final turunda iştirak etmək hüququ qazanmışlar. İnanırıq ki, onlar bu turda da qalib gələrək doğma Neftçalamıza başucalığı gətirəcəklər.

## Şəhər bələdiyyəsində ilk xeyriyyə tədbiri

# "BİZ GÜNƏŞİN ZƏRRƏSİYİK"

Bələdiyyə bir qurum olaraq bir çox səlahiyyətlərə malikdir və buna müvafiq olaraq ardıcıl tədbirlər həyata keçirir. Bunlardan biri də xeyriyyə yönümlü addımlardır ki, Neftçala bələdiyyəsi də bu işdən kənarda qalmır. Əziz Novruz ərəfəsində ata və ana qayğısından məhrum olmuş uşaqlar üçün şəhər 1 saylı tam orta məktəbində təşkil olunan "Biz Günəşin zərrəsiyik" adlı tədbirin hamı tərəfindən böyük maraqla qarşılanması da bununla bağlı idi.





Müəllim və valideynlərin, kiçik yaşlı uşaqların iştirak etdiyi tədbiri Neftçala bələdiyyəsinin üzvü, şəhər 1 saylı tam orta məktəbinin dərs hissə müdiri İradə Yusifova açaraq belə xeyirxah tədbir üçün şəhər bələdiyyəsinin sədri Aydın Aslanova və sədr müavini Jalə Sərdarzadəyə öz təşəkkürünü, səmimi minnətdarlığını bildirdi.

Sonra İradə müəllimə sözü Neftçala bələdiyyəsinin sədri Aydın Aslanova verdi. Uşaqları, xüsusilə ata-ana qayğısından məhrum olan uşaqları sevindirməyin, onlara qayğı göstərməyin vacib olduğunu diqqətə çatdıran Aydan müəllim gələcəkdə belə tədbirlərin daha tez-tez keçiriləcəyini vurğuladı. Tədbirin təşkilində xidmətləri, zəhmətləri olan Jalə xanıma və İradə müəlliməyə təşəkkürünü bildirdi, salondakıları qarşıdan gələn əziz bayram münasibətilə ürəkdən təbrik etdi.

Neftçala bələdiyyəsinin sədr müavini Jalə Sərdarzadənin çıxışı da maraqla dinlədənildi. Cabir Novruzun

**Mən bütün anaları**  
**günəşlə tən tuturam,**  
**Onlara gül çələngi**  
**məhəbbətdən tuturam.**

misralarını dilə gətirən Jalə xanım tədbirə "Biz Günəşin zərrəsiyik" adının verilməsinin də təsadüfi olmadığını qeyd etdi. Biz anaları Günəşə, övladları isə Günəşin zərrələrinə bənzətdik dedi. Sonra o, sözünə davam edərək dedi:

— Biz yeni seçilənlər olaraq şəhər bələdiyyəsinin fəaliyyət göstərdiyi illərə nəzər saldıq və gördük ki, indiyə qədər heç bir xeyriyyə yönümlü tədbir keçirilməmişdir. Elə ona görə qərara aldıq ki, ilk tədbirimizi körpə fidanlarla keçirək və bayram günlərində onların qəlbini sevindirək. Bu gözəl, xeyirxah tədbirin hasilə gəlməsində bizə dəstək olan rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyevə sonsuz təşəkkürümüzü və səmimi minnətdarlığımızı bildiririk. Bu işi hasilə yetirdiyimiz üçün çox sevincliyik və inanıram ki, humanist xarakterli belə tədbirlərimiz ardıcıl olacaq.

Tədbirin sonunda 25 şagirdə hədiyyələr təqdim olundu. Onlar şən musiqi sədaları altında rəqs etdilər, xoş, sevincli dəqiqələr yaşadılar.

**Fərhad AĞAYEV**

## Sizin sağlamlığınız

# SƏMƏNİ, NİYƏ CÜCƏRDİRƏM SƏNİ?

Yayın cırhacırında səmənidən danışsaq, təəccüblənib deyəcəksiniz ki, heç hənanın yeridir? Amma indi məqamıdır. Səməni əsrlər boyu yaddaşımıza baharın rəmzi kimi həkk olunub. İndi hara üz tutsan, hansı qapıdan içəri girsən, səni ilk qarşılayan səməni xonçası olacaq. Evlərdə də artıq səməni süfrənin başına gəlir, bər-bəzəyə çevrilir. Novruz süfrəmizdə boynuna qırmızı lent bağlanan yaşıl səməni nimçəsi olmasa, natamam görünəcək. Lakin bu şənliklər bitdikdən sonra solmuş, şuxluğunu itirmiş səmənilər hamı atacaq. Məclislərimizin yaraşığı olan minlərlə səməni nimçəsinin bayramdan sonrakı həyatı beləcə başa çatacaq.

Mütəxəssislər deyirlər ki, toxumlar cücərməyə başladıqda onlarda güclü həyat enerjisi oyanır. Bioloji aktiv maddə, vitamin, mikroelementlərlə zənginləşən cücərtilər ən bahalı ərzaq növlərini əvəz edə bilir.

Cəmi bir neçə gün cücərdildikdən sonra toxumların vitamin tərkibi dəyişir, infarktla mübarizədə aparıcı qüvvə kimi vacib olan vitaminlərlə zənginləşir. Onların tərkibində qırmızı qan kürəcikləri üçün vacib olan dəmir C vitamini ilə birlikdə xəstəni qanazlığından xilas edir. Cücərtilərdəki kalium orqanizmin turşu-qələvi balansını qoruyur, əzələlərin əpriməsinin qarşısını alır, onlara elastiklik verir, ürək əzələsini gücləndirməklə xəstələrin infarktdan əvvəlki və sonrakı səhhətinə müsbət təsir edir. olmağa, orqanizmi gəncləşdirməyə, dişləri və damaqları möhkəmləndirməyə kömək edir.



Lakin ulularımız səmənidən tamamilə başqa məqsəd üçün, əsasən orqanizmi gücləndirən, ona gənclik və təravət gətirən müalicə vasitəsi kimi istifadə ediblər. İndi bunlar unudulub. Bəşər tarixində buğdanı ilk dəfə becərən misirlilər səməninin nə olduğunu elə o zamandan yaxşı bilirmişlər. Qədim Misir mətbəxində isladılmış və cücərdilmiş buğdaya xüsusi yer verilirdi. Miladdan əvvəl III minillikdə çinlilər də dənli bitki toxumlarının cücərtilərini faydalı və müalicəvi qidalardan sayırdılar. Cücərdilmiş toxumların müalicəvi əhəmiyyəti qədim hind reseptlərində, Hippokratın tövsiyələrində xüsusi qeyd olunub. Şərq dövlətlərində və xüsusən Tibet dağlarında yaşayan insanlar əsrlər boyu cücərdilmiş buğda ilə qidalanmaqla ömürlərini uzadıblar.

Dənli bitkilərin cücərdilib qida kimi işlənilməsi 1949-cu ildə Hindistanın ictimai-siyasi xadimi Mahatma Qandinin "Diyet və diyetin islahatları" kitabından sonra dünyada geniş vüsət aldı. İndira Qandinin atası Mahatma öz üzərində apardığı təcrübələrə əsasən dənli bitkilərin cücərtilərinin insanın əqli inkişafına təkan verdiyini sübut edə bilmişdi. Bununla da Novruz bayramının rəmzinə, süfrələrimizin bəzəyinə çevrilən yaşıl səməni artıq bütün dünyada insan orqanizmini kompleks vitaminlərlə təmin edən müalicəvi qida növü kimi məşhurlaşmağa başladı. İndi inkişaf etmiş ölkələrdə cücərdilmiş buğdadan geniş istifadə olunur. Hətta apteklərdə qurudulmuş həb kimi satılır.

Bir Qərb məsəli var: ən təzə xəbər çoxdan unudulmuş köhnə xəbərdir. Bu baxımdan səməni haqqında hamıya bəlli olan köhnə məlumatları bir daha oxucularımız üçün təkrarlamaq yerinə düşərdi. Nobel mükafatı laureatlarından həkim Uollok, bioenergetik Vaqmor və başqaları dənli və paxlalı bitkilərin (buğda, çovdar, yulaf, arpa, darı, qarabaşaq, vələmir, lobya, noxud, mərci, paxla və s.) cücərtilərinin insan səhhəti üçün xeyirli olduğunu çoxdan təsdiq ediblər. Dənli-paxlalı bitkilərin və digər toxumların cücərtilərinin müxtəlif, hətta ağırlaşmış xəstəliklərin müalicəsində uğurlu istifadəsi son 40-50 ildə onları sağlamlaşdırıcı qida kimi dəbə mindirdi.

Natural qidalarla müalicənin tərəfdarları belə hesab edirlər ki, cücərdilmiş buğdanın və müxtəlif bitki toxumlarının qida kimi qəbul edilməsi orqanizmin ümumi gümrahlığına səbəb olur, tonusu qaldırır, ürək-damar, əsəb, nəfəs və mədə-bağırsaq sisteminin fəaliyyətini gücləndirir. Belə cücərtilərdən tərtib olunmuş diyet artıq çəkidən xilas

Cücərtilərin tərkibindəki xrom və litium diabetin profilaktikası, əsəb yorğunluğu və depressiyalarda vacibdir. Bəzi tədqiqatçılar belə qənaətə gəliblər ki, gündə cəmi bir xörək qaşığı cücərdilmiş buğda yemək bədxassəli şişlərin və infarktın başvermə ehtimalını ciddi surətdə azalda bilir.

Paxlalı və dənli bitkiləri cücərtmək üçün gündə 50 qram toxum kifayətdir. Cücərtmək üçün sağlam toxumları seçin. Yuyarkən suda batmayan dənləri sağlam olmadıqları üçün atın. Dəni cücərtmək üçün saxsı, şüşə, cini və emal örtüyü olan qab seçmək məsləhətdir. Lazımi miqdarda dəni qaba töküb, üstünə çıxana kimi su ilə doldurun, qabın ağzını parça salfetka ilə örtüb 20-22 dərəcə isti olan yerdə 24-36 saat saxlayın. 6-12 saatdan sonra su acılaşdığı üçün toxumlar təkrar yuyulmalı, təzə su əlavə edilməlidir. Toxumların növündən və havanın hərarətindən asılı olaraq onları 36-48 saat cücərtmək kifayətdir. Yaşıl zoğların alınması üçün isə 7-10 gün lazımdır.

Bilmək vacibdir ki, cücərdilmiş dənli və paxlalı bitkilər həzmə yaxşı gedir, bədəni tullantılardan təmizləyir, uzunömürlüyə xidmət edir. Bəzi alimlər cücərdilmiş toxumların bir sıra onkoloji xəstəliklərə sipər olduğunu istisna etmirlər. Həkimlər əsasən belə qidanı orta yaş həddindən sonra istifadə etməyi tövsiyə edirlər.

Bütün bu cücərtilər əslində bizim səməni qədər faydalıdır. Onların qidada istifadə olunmasında heç bir məhdudiyyət yoxdur. Lakin həkimlə məsləhətləşməyiniz vacibdir. Cücərtilər nisbətən kobud qida sayıldığı üçün mədə xorasında məsləhət görülmür. Heç bir əks təyinat yoxdursa, onları çiy meyvə, tərəvəz, göyərti ilə, müxtəlif salatların, duru və quru xörəklərin tərkibində istifadə edə bilərsiniz. Müxtəlif dənli bitkilərin cücərtilərini də qarışdırıb yemək olur.

Nəhayət, hər bir kəsin bilməyi vacibdir ki, səməni süfrənin yox, ruhumuzun tacıdır. Onu cücərdib sonradan atmaq isə bilməməkdən irəli gəlir. Dünya dəyişir, qidalanmaya da fərqli və yeni yanaşmalar formalaşır. Bu baxımdan səməni də, yəni bizim cücərdib tulladığımız buğda da rasionumuzda ən faydalı və sağlamlaşdırıcı qida kimi xüsusi yer tutur.

**B.İMANQULİYEV**



# Uşaqların nağıl dünyası



Mart ayının gəlişi özü ilə təravət, təbiətin oyanışını gətirir. Mart ayında elimizin müqəddəs bayramı olan Novruzu qeyd edirik. Novruzu əbəs yerə "bahar bayramı" adlandırmırlar. Çünki artıq yaz fəsli öz gözəllikləri ilə yurdumuza qədəm qoyub.

Böyüklərlə yanaşı Novruz kiçiklərin də sevimli bayramıdır. Bu münasibətlə şəhər 1 saylı tam orta məktəbin III "d" sinfində keçirilən bayram tədbiri də əziz Novruza bir ərməğan idi. Tədbirdə Novruzun bütün adət-ənənələrinin, atributlarının təmsil olunması xüsusilə əlamətdar idi. Burada müəllim və şagirdlərlə yanaşı valideynlər də iştirak edirdilər.

İlk söz məktəbin dərs hissə müdiri İradə Yusifovaya verildi. O, məktəbliləri bu bayram münasibətilə təbrik etdi, tədbiri açıq elən etdi. Daha sonra həmin sinfin müəllimәsi Aybəniz Sailova şagirdlərinə ürək sözlərini bildirdi, onlara sevinc dolu günlər arzuladı.

Aparıcılar İlkin Məmmədov və Zəhraxanım Zalova Novruza həsr olunmuş sözləri, söhbətləri ilə şənliyə yeni rəng qatdılar. Kosa, Keçəl və Bahar qızı şagirdləri özlərinə məxsus sevinclə təbrik etdilər. Kosa öz payını aldı, rəqs etdi və şagirdlərin bayrama həsr olunmuş şeirlərini dinlədi. Əkbər Aslanovun, Şəms Nağızadənin, Təranə Abdullayevanın oynadıqları səhnəciklər xoş duyğular oyatdı. Kiçik yaşlı şagirdlər rəqs etdilər, şeirlər, bayatılar söylədilər. Hamısı yaxşı qarşılandı, alqışlara səbəb oldu.

Bahar çiçəklərin açması, kəpənəklərin uçuşması, qaranquşların gəlişi ilə gözəldir. Bu gözəlliklərə həsr olunmuş mahnılar oxundu, kəpənəklər və qaranquşlar geyimində olan uşaqlar şeirlər söylədilər. Üzeyir Hacıbəylinin bəstələdiyi "Arşın mal alan" operettasının musiqi sədaları ətrafa yayıldı. Musiqi məktəbini əla qiymətlərlə bitirən Abidin Əlizadənin "Uzundərə" rəqsi alqışlara səbəb oldu.

Şagirdlər "Bayram axşamı" mahnısını oxudular, yallı getdilər. Sonra "Gəl, gəl, a yaz günləri" mahnısı ifa olundu.

Tədbirin diqqət çəkən məqamlarından biri də onun təbiiliyi idi. Yerə qədim xalçanın salınması, mütəkkə və nalçaların qoyuluşu, şagirdlərin yerdə əyləşməsi xoş təsir bağışlayırdı. Xonçaların, yanan şamların ətrafında dövrə vuran, yallı gedən şagirdlərin üzündəki təbəssüm təkcə müəllimləri deyil, valideynləri də ürəkdən sevindirirdi. Qədim əşyaların — samovarın, mis və saxsı qabların, hananın, manqalın, farşın, digər əşyaların əks olunduğu bu gözəl tədbir uşaqların qəlbində xoş xatirə kimi qaldı.

**Aybəniz SAİLOVA,**  
**məktəbin müəllimi**

# HAMI ÜÇÜN DOĞMALAŞAN XATİRƏLƏR



*Qəzetimizin uzaq elli daimi oxucusu və yazarı lerikli Ağaş Mirzəzadədən yenə məktub almışıq. Bu dəfə o özünün ötüb keçmiş günlərinə, aylarına, illərinə dair həzin, kövrək xatirələrindən yazıb. Xatirənin uzağı, yaxını, doğması, yadı olmur, mənalısı, mənasızı, dəyərlisi, dəyərsizi olur. O xatirə ki, ümumi hisslərimizə, duyğularımıza eyni dərəcədə təsir göstərir, hamımızı eyni dərəcədə kövrəldir, o hamımız üçün doğmalaşır, hamımıza aid olur. Ağaş müəllimin aşağıdakı xatirələri də bizi beləcə təsirləndirdi, kövrəltdi, düşündürdü...*

## BİR ŞEİRİN TARİXÇƏSİ

Bu sadə sətirlər ötüb keçmiş uzun ömrümün adi bir anından qəlbimdə qopub qalmış həzin bir xatirədir. Ömür-gün yoldaşım Xonçagül xanımla Günəşli kəndində 48 ildən artıq yaşadığımız xudmani evdə sakit bir ömür sürürük. Yaşıl bir təpənin başında yerləşən evimizin günbatana baxan pəncərəsi qarşısında nahar etməyə alışmışıq. Orada biz özümüzlə mavi göylər, buludlu-dumanlı fəzalar, kəndimizin saysız-hesabsız evləri arasında heç bir maneə, heç bir sərhəd hiss etmirik. Elə bilirik bütün bu doğma aləmlə qaynayıb qarışmışıq, qəribə bir vəhdətdəyik... Belə anlarda ürəyimiz çox sakit və rahat olur, xoş hisslərlə dolur...

Bir dəfə beləcə üz-üzə tourub asta-asta danışaraq səhər çayı içdiyimiz vaxt Xonçagül xanım birdən qarşı divardakı balaca güzgüdə öz şəklini gördü və ağarmış saçlarını seyr edib yarızarafat-yarıciddi kədərlə:

— Gör ömrümüz-günümüz, gözəl günlərimiz necə keçib getdi, — dedi.

Onun sözləri ürəyimi titrətdi. Durub otağıma keçdim. Qırx il əvvəl — 1974-cü ilin 20 mayında yazdığım "Ömür-gün yoldaşıma" şeirini axtarıb tapdım. Qəlbimi qəribə hisslər bürüdü. Elə bil onda mən bu günümüzü görürmüşəm, həmin şeiri elə bu günümüz üçün yazıbmışam. Fikirləşdim bunu niyə üzə çıxarmamışam, niyə xəlvətdə saxlamışam? Şeiri bir də, bir də oxudum... Bir də, bir də təsirləndim... Bir də, bir də kövrəldim... Bir də, bir də duruldum... Təqdim edirəm ki, bunları sizlər də oxuyasınız, təsirlənəsiniz, kövrələsiniz, durulasınız...

### ÖMÜR YOLDAŞIM XONÇAGÜL XANIMA

*Arzu da, istək də dünənki deyil,*  
*Bilirsən ömür-gün nə qədər baha.*  
*Səni dəyişdirib illər elə bil,*  
*Yox, mən də əvvəlki deyiləm daha.*

*İçimdə bir ümid göyərə qış, yaz,*  
*Ötəri bir həvəs, quru səs deyil.*  
*Mənim arzularım sərhəd tanımaz,*  
*Mənim ağrılarım görünməz deyil.*

*Yoxsa bu ömürdən gileyinmi var,*  
*Varlıyam, hallıyam duyğularımla.*  
*O da cana gələr, pərvəriş tapar*  
*Sənin təmənnasız qayğılarınla.*

*İndi bayrağımız övlad əlidir,*  
*Qoşa qanadımız — dörd oğlan, üç qız.*  
*Bizim ömrümüzdən nur əmməlidir,*  
*İşıq içməlidir sonbeşik İldız.*

*Dünya bizim üçün al səhər açar,*  
*Səpələr sonra da leysan yağışı.*  
*Beləcə bir ömür enişi başlar,*  
*Hazır ol, sonra da başlar yoxuşu.*


## BİLDİRİŞ – MƏLUMAT

**Hörmətli vergi ödəyicisi,**

Əgər Siz sahibkarlıq fəaliyyətinin göstərilməsi məqsədilə hər hansı obyekti icarəyə götürüb fəaliyyət göstərirsinizsə, o halda həmin obyektin sahibi ilə icarə müqaviləsi bağlanmalıdır.

Vergi inzibatçılığı məqsədləri üçün hüquqi şəxslə hüquqi şəxs arasında bağlanmış icarə müqaviləsi istisna olmaqla, digər şəxslər arasında bağlanmış icarə müqavilələri notarial qaydada təsdiq olunmalıdır.





**Ödəmə mənbəyində icarə məbləğindən vergini tutan şəxslər ödənilən icarə məbləğindən 14% dərəcə ilə vergini tutaraq gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və "Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi"ni vergi orqanına təqdim etməlidirlər.**

Xatırladırıq ki, vergi qanunvericiliyinin pozulmasına görə gəliri ödəyən hüquqi və fiziki şəxslərə Vergi Məcəlləsi ilə müəyyən edilmiş maliyyə sanksiyaları və faizlər tətbiq edilir.

Əlavə məlumat almaq üçün vergi ödəyicilərinə xidmət mərkəzlərinə və Vergilər Nazirliyinin "195" Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.

***Vergilər Nazirliyi***


Neftçala şəhər sakini Tariyel Əflatun oğlu Quliyevin adına verilmiş 17 aprel 2000-ci il tarixli AO №0249588 nömrəli hərbi bilet itdiyinə görə etibarsız sayılır.

Həsənabad qəsəbə sakini Həbib Məmməd oğlu Hüseynlinin adına verilmiş 29 oktyabr 2012-ci il tarixli SX №0050175 nömrəli hərbi bilet itdiyinə görə etibarsız sayılır.


Baş redaktor H.Ə.ƏSƏDOV

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə №268

Ünvanımız: Az 4700, Neftçala şəhəri, H.Əliyev prospekti 38, Telefon: 3-44-03 Mobil: (050) 333-72-30, (055) 669-56-71 H/H: №AZ95AIIB33080019446400258164 VÖİN: 6500044671

Qəzet "GÜNDOĞAR"ın kompüter mərkəzində yığılıb səhifələnmiş və "FUTBOL+SERVİS" mətbəəsində çap olunmuşdur. Dizayn Fərhad Ağayevin, fotolar Muradındır.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Tiraj: 750 Sifariş №12 Bir nömrənin qiyməti: 40 qəpik.